KHAZAR REVIEW
№ 390 Dekabr 2019

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org








# İÇİNDƏKİLƏR


"Mikro-elektro-mexaniki sistemlər" mövzusunda seminar ................ 4

Xəzər Universitetinin nümayəndə heyəti Tehranda....................... 6

"Aikido əngəl tanımır" mövzusunda tədbir .............................. 8

Universitet xəbərləri ............................................... 10

*İsaxan İsaxanlı.* Muğam ifaçılığında yenilik.......................... 16

Xəzər Universitetində MƏFAM-ın açılış mərasimi ........................ 20

*Hamlet İsaxanlı.* MƏFAM-ın açılış mərasimində nitq ..................... 22

*Şəhram Mohəqqeq Oromi.* MƏFAM-ın açılış mərasimində nitq ............ 24

Tural Məhərrəmov: "Ucqar kəndlərə gedib şagirdlərlə görüşürdük" (*Xəzər Universitetinin müəllimi ilə müsahibə*) ................................ 28

İslam Azad Universiteti mütəxəssisinin "Elmi müzakirələr və tədqiqat metodologiyası "mövzusunda seminar.................................. 32

Xəzər Universitetinin əməkdaşı Sankt-Peterburqda beynəlxalq konfransda. 34

ABŞ-ın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində beynəlxalq təhsil mütəxəssisləri üçün seminar ...................................... 36

"Gələcəyini qur" layihəsi Xəzər Universitetində ........................ 40

Erasmus+ layihələrinin institusional monitorinqi ....................... 46

*Aynur Qəzənfərqızı.* Tələbələrinə hüquqlarını müdafiə etməyi öyrədən uca insan ....................................................... 50

NDU xəbərləri ........................................................ 58

Xəzər Universiteti Nəsiminin yubileyi münasibətilə ağacəkmə kampaniyasında iştirak etdi ............................................. 70

Tələbələrin professor Hamlet İsaxanlı ilə görüşü........................ 72



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Günel Əkbərova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ · 1991 · BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts
Eynur Mehdiyev

Computer graphics:
Gunel Akbarova
Photo:
Multimedia Centre






# "MİKRO-ELEKTRO-MEXANİKİ SİSTEMLƏR" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "MICRO-ELECTRO-MECHANICAL SYSTEMS"

Noyabrın 8-də Xəzər Uiversiteti Mexanika mühəndisliyi departamenti və Mexanika Mühəndisliyi Cəmiyyəti (MMC) komandasının təşkilati dəstəyi ilə Urmiya Universitetinin Mühəndislik fakültəsinin dekanı professor Ghader Rezazadeh "Mikro-elektro-mexaniki sistemlər (MEMS)" mövzusunda seminar keçirdi. Seminarda tələbələr, habelə, Xəzər Universitetinin müəllim heyəti iştirak edirdi.

Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr.Hassan Niknafs çıxış edərək, iştirakçıları və qonaqları salamladı. MEMS-in hərtərəfli tətbiqindən sonra professor Rezazadeh elektrostatik olaraq aktivləşdirilmiş MEMS-in qeyri-xətti davranışlarını təsvir etdi.

Sonra MMC-nin rəsmi açılışı oldu. MMC komandasının rəhbəri Fəridə Qaracayeva və köməkçisi Ağamoğlan Beydullayev MMC-nin əhəmiyyəti və əsas vəzifələri barədə ətraflı məlumat verərək, iştirakçıların suallarını cavablandırdılar. MMC qrupu 5 tələbə və məsləhətçi Dr. Mehdi Kiasatfar`dan ibarətdir.

On November 8, with the organizational support of the Department of Mechanical Engineering and "SME" team, Professor Ghader Rezazadeh, Dean of faculty of Engineering of Urmia University conducted a seminar on "Micro-Electro-Mechanical-Systems". The seminar was attended by the students, as well as the faculty members of Khazar University. Dr. Hassan Niknafs, Dean of the School of Sciences and Engineering delivered an opening speech and greeted the participants and guests. After a comprehensive introduction of MEMS, Professor Rezazadeh described nonlinear behavior of Electrostatically-Actuated MEMS. At the end, the Society of Mechanical Engineering (SME) was officially opened. The head of SME team Farida Garajayeva and her assistant Aghamoglan Beydullayev gave detailed information about the importance and main objectives of the SME and answered the questions of the participants. SME team consists of 5 students and Advisor Dr. Mehdi Kiasatfar.
















# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ TEHRANDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Həyat elmləri departamentinin elmi işçisi dosent Cavid Ocaqi və eiLink Araşdırma və İnkişaf Mərkəzinin direktoru dosent Rüstəm Rüstəmov Mustafa[(s.a.v.)] Elm və Texnologiya Fondu (MSTF) tərəfindən noyabrın 9-dan 12-dək Tehranda təşkil olunan 6-cı Elm və Texnologiya Mübadiləsi Proqramı (STEP) və 4-cü Beynəlxalq EISA (Alimlərin Nailiyyətlərinin Sənayelərə Təqdim Edilməsi) sammitində iştirak və çıxış üçün dəvət edilmişdilər.

4-cü Beynəlxalq EISA sammitində əsas diqqət 3 sahəyə verilmişdi: su, sağlamlıq və enerji, həmçinin, "Mustafa[(s.a.v.)] Mükafatı 2019"-un təqdimat mərasimi. Mustafa[(s.a.v.)] Mükafatı vətəndaşlıq, din, cins və yaş baxımından heç bir məhdudiyyət qoyulmadan informasiya-kommunikasiya elm və texnologiyası, həyat və tibb elmi və texnologiyası, nano elm və nano texnologiya kateqoriyaları üzrə 57 İslam ölkəsinin müsəlman vətəndaşlarına verilən mükafatdır.

Tədbir icra katibliyinin əməkdaşlığı və elmi əməkdaşlıq, maliyyələşdirmə, elm və texnologiya, su, enerji, ətraf mühit, səhiyyə və qadınlar sahəsində 70 alimin iştirakı ilə keçirildi. Qeyd olunan panellər Tehran şəhərindəki Əl-Zəhra Universitetində, Tehran Tibb Elmləri Universitetində, Şərif Texnologiya Universitetində, İmam Sadiq Universitetində və İranın Tele-radio Yayımı Universitetində keçirildi.

Noyabrın 9-da professor Hamlet İsaxanlı Əl-Zəhra Universitetində "İslam dünyasında elm və texnologiya əməkdaşlığı şəbəkəsinin prioritetləri nələrdir?" adlı mühazirə ilə panel iclasında iştirak etdi.

Noyabrın 10-da professor Hamlet İsaxanlı İranın Tele-radio Yayımı Universitetinin ev sahibliyi etdiyi Elmi Kommunikasiya Sammitində "İctimaiyyətlə əlaqələr elmi kommunikasiya vasitəsi kimi" adlı daha bir çıxış etdi. Elə həmin gün dosent İradə Xəlilova İran Tibb Elmləri Universitetinin ev sahibliyi etdiyi sağlamlıq, insanlar və ətraf mühit sammitində "Miyeloperoksidaz vasitəsilə oksidləşmənin klinik nəticələri" mövzusunda təqdimatla çıxış etdi.

Noyabrın 11-də Tehranın Vəhdət salonunda Mustafa [(s.a.v.)] mükafatlandırma mərasiminin 3-cü turu təşkil edildi. İki türk alimi və üç İran alimi bu hörmətli Mustafa [(s.a.v.)] mükafatına layiq görüldü. Professor Hamlet İsaxanlı digər aparıcılar arasında mükafatı təqdim etmək üçün səhnəyə dəvət olundu (link: https://iranpress.com/en/iran-i140427-3_iranians_2_turkish_scholars_win_mustafa_prize)

Tədbirdən sonra professor Hamlet İsaxanlı İran Milli TV, Press TV, Jame-Jam TV və digər İran televiziya və radio kanallarına geniş müsahibələr verdi.

Xəzər Universitetinin nümayəndələri İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Təhsil və elm şöbəsinin müdiri ilə də görüş keçirdilər. Xəzər Universitetinin müxtəlif səviyyəli proqramları və beynəlmiləlləşdirmə strategiyasını müzakirə etdilər.




# KHAZAR UNIVERSITY DELEGATION IN TEHRAN

On 9-12 November Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Associate Professor Irada Khalilova, Rector of Khazar University, Associate Professor Javid Ojaghi, Research fellow of Life Sciences Department and Associate Professor Rustam Rustamov, Director of eiLink Research and Development Center had been invited to participate and deliver a talk in the 6th Science and Technology Exchange Program (STEP) and the 4th International EISA (Exposure of Industries to Scientists' Achievements) summit organized by Mustafa(pbuh) Science and Technology Foundation (MSTF). The 4th International EISA summit was held with a focus on the three fields: Water, Health, and Energy, along with the Mustafa Prize 2019 Award ceremony. The Mustafa(pbuh) Prize is an award in the categories of information and communication science and technology, life and medical science and technology, nanoscience, and nanotechnology to muslim citizens of one of the 57 Islamic countries with no restrictions on citizenship, religion, gender or age.

The event was held with the collaboration of the executive secretariat and with the attendance of 70 scientists in the field of scientific cooperation, financing, science and technology, water, energy, environment, health, and women. The mentioned panels were held in Alzahra University, Tehran University of Medical Sciences, Sharif University of Technology, Imam Sadiq University, and Broadcasting University, Tehran, Iran.

On 9 November, Professor Hamlet Isakhanli participated in the panel discussion with the lecture entitled "What are the Priorities of Science and Technology Cooperation Network in the Islamic World?" in Alzahra University.

On 10 November, Professor Hamlet Isakhanli delivered another speech entitled "Public Relations as Science Communication" in the Science Communication Summit, hosted by the Broadcasting University of Iran. On the same day, Associate Professor Irada Khalilova introduced a presentation on "Implications for the Clinical Consequences of Myeloperoxidase Mediated Oxidation" in the Health, People, and Environment Summit hosted by Tehran University of Medical Sciences, Iran.

On 11 November, the 3rd round of the Mustafa(pbuh) Prize Award Ceremony was organized at Tehran's Vahdat Hall. Two Turkish scientists and three Iranian academics were awarded this honorable Mustafa(pbuh) Prize. Professor Hamlet Isakhanli was invited to the stage to present the prize among other presenters (link:*https://iranpress.com/en/iran-i140427-3_iranians_2_turkish_scholars_win_mustafa_prize*).

After the event, Professor Hamlet Isakhanli gave extensive interviews to Iran National TV, Press TV, Jame-Jam TV, and other Iranian television and radio channels (please, see for the interview starting from 11:48 minutes:*https://www.presstv.com/Detail/2019/11/12/611003/Mustafa-Science-Prize-2019*).

Representatives of Khazar University also had a meeting with the Head of the Department of "Education and Science" of the Ministry of Foreign Affairs of the Islamic Republic of Iran. They discussed different levels of degree programs and the internationalization





# "AİKİDO ƏNGƏL TANIMIR" MÖVZUSUNDA TƏDBİR

# TRAINING ON "AIKIDO KNOWS NO HINDRANCE"

Noyabrın 13-də Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzinin rəhbəri, Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın təşkilatçılığı ilə universitetdə "Aikido əngəl tanımır" mövzusunda tədbir keçirildi. Tədbirə "Əngəlsiz Düşüncə Sosial İnkişafa Yardım" İçtimai Birliyinin rəhbəri Mətanət Qüdsi və Türkiyənin "Yaponiya Sənətləri və İdman növləri" dərnəyinin rəhbəri və Ege Universitetinin müəllimi Engin Ergin və heyəti dəvət edilmişdi. Qeyd etmək lazımdır ki, Engin Ergin Türkiyədə mövcud olan 1500 Aikido təlimçisi arasında sağlamlıq imkanları məhdud olan insanlar üçün professional idman növünü öyrədən yeganə təlimçidir. Tədbirdə Engin Ergin və onun heyəti Aikido idman növündən əlilliyi olan şəxslərin necə istifadə etdikləri haqqında ətraflı məlumat verməklə yanaşı, bunu əyani nümayiş etdirdi. Azərbaycanda da bu idman növünün sağlamlıq imkanları məhdud olan şəxslər arasında maraq doğurması və yayılması da təlimin məqsədləri arasında idi. Tələbələrdə sağlamlıq imkanı məhdud olan şəxslərin özünümüdafiə yollarını müşahidə etmələri böyük maraq yaratdı.

Tədbirdə çıxış edən Mələk Kərimova universitetin sağlamlıq imkanları məhdud olan tələbələrə müsbət münasibətini ifadə edərək, onların universitetdə rahat təhsil almaları üçün ESFIDIP layihəsi çərçivəsində qurulan "Əlilliyi olan Tələbələr üçün Mərkəz" haqqında da məlumat verdi. O, eyni zamanda, əlilliyi olan ictimai cəhətdən fəal insanların zehni və daxili güclərinin hamı üçün motivasiya, ilham mənbəyi olduğunu qeyd etdi. Görüşdə Təlim və Tədris Mərkəzinin direktoru Ülkər Bayramova da Türkiyə və yerli tərəfdaşlarla bu mahiyyətdə tədbirlərin əhəmiyyətli olduğunu və əməkdaşlığın davam etdirilməsi üçün yeni layihələr üzərində düşünülməsinin zəruriliyini ifadə edərək, öz təşəkkürünü bildirdi.

On November 13, the University hosted an event entitled "Aikido knows no Hindrance", organized by Melek Kerimova, the Head of Khazar University's Psychological Service Center, Coordinator of the Psychology Department. Among the invitees of the event were Matanat Gudsi, Head of the "Mindset with no Hindrance Support for the Social Development" Public Union, and Engin Ergin, the Head of "Japanese Arts and Sports" Society, and teacher at the Ege University. It is worth noting that Engin Ergin is the only trainer among the 1,500 Aikido trainers in Turkey, committed to teach professional sports for people with disabilities. At the event, Engin Ergin and his team provided a visual demonstration of how Aikido sports handicaps are used by persons with disabilities. The aim of the training was also to spark the interest among the persons with disabilities and spread this type of sport in Azerbaijan amongst this group. It was of great interest to students with disabilities to see how they could defend themselves.

Speaking at the event, Melek Karimova talked about the university's positive attitude to students with disabilities and also provided information about the Center for Students with Disabilities, established under the ESFIDIP project, so that they can enjoy a comfortable university education. At the same time, she indicated that the mental and inner strength of socially active people with disabilities are a source of motivation and inspiration for all. At the meeting, Director of the Teaching and Learning Center, Ulker Bayramova, emphasized the importance of the organized events in this context with Turkey and the local partners and the need for reflection on new projects to further cooperation and expressed her appreciation.















# "ƏN YAXŞI NATİQLİK" YARIŞI İLƏ BAĞLI GÖRÜŞ

# MEETING CONCERNING "BEST SPEAKER" COMPETITION

Noyabrın 13-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə universitetdə Böyük Britaniyanın ESU (The English-Speaking Union) təşkilatının tərəfdaşı olan Azerbaijan Public Speaking Competition (APSC) platformasının iştirakı ilə Azərbaycanda tələbələr arasında ingilis dilinin təbliği və onların beynəlxalq proqramlarda iştirakını təmin etmək məqsədilə görüş keçirildi. Karyera Mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev çıxış edərək, bu proqramın əhəmiyyəti və tələbələrin gələcək karyeralarında hansı imkanları yaradacağı barədə məlumat verdi.

Platformanın layihə meneceri Lalə Babayeva proqram haqqında ətraflı məlumat verdi və bildirdi ki, Böyük Britaniyanın ESU təşkilatı dünyanın ən böyük natiqlik yarışması olan "International Public Speaking Competition-2020" beynəlxalq proqramının Azərbaycan üzrə milli yarışını həyata keçirir.

Qeyd edək ki, proqramın ilkin mərhələsində 15 nəfər finalçı müəyyən olunacaq. Dekabrın 1-də isə final mərhələsinin qalibi Azərbaycanın ən yaxşı natiqi statusunu qazanaraq, 2020-ci il mayın 11-dən 15-dək Londonda dünyanın ən yaxşı natiqi adını qazanmaq uğrunda 53 ölkədən olan qaliblərlə yarışacaq.

Görüş tələbələrin suallarını cavablandırmaqla başa çatdı.

AZƏRTAC tədbir haqqında xəbər yaymışdır:

*https://azertag.az/xeber/Telebeler_An_yaxsi_natiqlik_yarisi_barede_melumatlandirilib-1356546*

On November 13, upon the arrangements made by the Khazar University Career Center, a meeting was held with the participation of the Azerbaijan Public Speaking Competition (APSC), a partner of ESU (The English-Speaking Union) in the UK, aimed at facilitating English language promotion among students in Azerbaijan and their participation in international programs. While delivering his opening statement, Career Center Coordinator Fakhraddin Abdullayev spoke about the importance of this program and what opportunities it can open up in future careers.

Lala Babayeva, the project manager of the platform, provided a detailed information on the program and announced that the ESU of the UK will hold the national competition for Azerbaijan, International Public Speaking Competition-2020, the largest public speaking contest in the world.

It is worth mentioning that during the preliminary stage, 15 finalists will be selected. On December 1, the winner of the final round will win the title of the Best Speaker of Azerbaijan and will compete with the winners from 53 countries for the title of the best speaker in the world from 11 to 15 May 2020 in London.

The meeting has been concluded with answering the students' questions.

AZERTAC spread information on the event:

*https://azertag.az/xeber/Telebeler_An_yaxsi_natiqlik_yarisi_barede_melumatlandirilib-1356546*

# TÜRKİYƏLİ PSİXİATR TƏLƏBƏLƏRƏ MÜHAZİRƏ OXUDU

# TURKISH PSYCHIATRIST DELIVERED LECTURE TO STUDENTS

Noyabrın 13-də Özəl Boylam Xəstəxanasının qurucusu, psixiatr professor Ertuğrul Köroğlu Xəzər Universiteti Psixologiya departamentinin magistr tələbələrinə klinik psixologiya mövzusunda növbəti mühazirəsini oxudu. Tələbələr bu dərsdə pasiyent dəyərləndirmə və şizofreniya ilə əlaqədar nəzəri və praktik bilik və bacarıqlar qazandılar. Professor Ertuğrul Köroğlunun pasiyentlərlə olan şəxsi praktiki videolarını paylaşması tələbələrdə böyük marağa səbəb oldu.

O, dərsin sonunda öz təəssüratlarını bölüşərək, tələbələrin aktiv və həvəsli olmasından bir müəllim kimi qürurlandığını və Xəzər Universiteti ilə əməkdaşlıqdan məmnun olduğunu qeyd etdi.

AZƏRTAC tədbir haqqında xəbər yaymışdır:

*https://azertag.az/xeber/Turkiyeli_psixiatr_telebelere_muhazire_oxuyub-1356623*

On November 13, Professor psychiatrist Ertuğrul Köroğlu, the Founder of the Özəl Boylam Hospital, organized the subsequent clinical psychology lecture for master students at Khazar University Psychology Department. Students gained theoretical and practical knowledge and skills related to patient assessment and regarding schizophrenia disease in this course. Professor Ertuğrul Köroğlu, s personal videos with his patients were of great interest to the students.

He shared his impressions at the end of the course, expressing that he was honored as a teacher by the active engagement of the students and that he was pleased with the collaboration with Khazar University.

AZERTAC spread information on the event:

*https://azertag.az/xeber/Turkiyeli_psixiatr_telebelere_muhazire_oxuyub-1356623*

# TÜRKİYƏLİ PSİXİATR ERTUĞRUL KÖROĞLU XƏZƏR UNİVERSİTETİ HAQQINDA

# TURKISH PSYCHIATRIST ERTUĞRUL KÖROĞLU ABOUT KHAZAR UNIVERSITY

2019-cu il noyabrın 14-də *afn.az, moderator.az* və digər saytlar Türkiyənin Boylam Psixiatrik Xəstəxanasının professoru, psixiatr Ertuğrul Köroğlunun Azərbaycan Tibb Universitetinin (ATU) rektoru professor Gəray Gəraybəyli ilə görüşü haqqında xəbər yaymışlar. Ertuğrul Köroğlu söhbətində Xəzər Universiteti ilə sıx əlaqədə olduğunu, ayda bir dəfə tələbələr üçün mühazirə oxuduğunu və belə əlaqənin digər universitetlərlə də yaranmasını arzu etdiyini bildirmişdir.

*https://afn.az/sond/84203-atu-rektoru-turkiyenin-boylam-psixiatrik-xestexanasinin-professoru-ile-gorushub-.html*

*https://www.moderator.az/news/297599.html*

On November 14, 2019, *afn.az, moderator.az* and other websites reported on the meeting of Professor Ertuğrul Köroğlu, Professor of Turkish Boylam Psychiatric Hospital, with Professor Geray Garaybeyli, Rector of Azerbaijan Medical University. In his interview, Ertuğrul Köroğlu indicated that he has a close relationship with Khazar University and he delivers lectures to University students once a month and wishes that such relations to be established with other universities.

*https://afn.az/sond/84203-atu-rektoru-turkiyenin-boylam-psixiatrik-xestexanasinin-professoru-ile-gorushub-.html*

*https://www.moderator.az/news/297599.html*




# TƏLƏBƏLƏR 10-CU BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNDƏ

# STUDENTS AT 10th INTERNATIONAL ENVIRONMENTAL PROTECTION EXHIBITION

Noyabrın 14-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin coğrafiya müəllimliyi ixtisasının tələbələri Bakı Ekspo Mərkəzində 10-cu Beynəlxalq Ətraf Mühit (CASPIAN ECOLOGY) sərgisində oldular. Tələbələr sərgidə müxtəlif stendlərlə tanış olub, ətraflı məlumatlar əldə etdilər.

On November 14, students, majoring in Geography Teaching from the Department of Geography and Environment of Khazar University, attended the 10th International Environmental Protection Exhibition (CASPIAN ECOLOGY) at the Baku Expo Center. Students approached different stands at the exhibition and received detailed information.







# "MÜHƏNDİSLƏR ÜÇÜN BİZNES TƏHSİLİ" PROQRAMINI BAŞA VURMUŞ TƏLƏBƏLƏRƏ SERTİFİKATLAR TƏQDİM EDİLDİ

# STUDENTS COMPLETED THE "BUSINESS EDUCATION FOR ENGINEERS" PROGRAM WERE GIVEN CERTIFICATES

Noyabrın 14-də Bakı Ali Neft Məktəbində (BANM) BP Azərbaycanın BANM-ın iştirakı və maliyyə dəstəyi ilə yerli universitetlərdə müxtəlif mühəndislik ixtisası üzrə təhsil alan tələbələrin inkişafına dəstək olaraq həyata keçirdiyi "Mühəndislər üçün biznes təhsili" proqramını uğurla başa vurmuş tələbələrə sertifikatların təqdim olunması mərasimi keçirildi. Tədbirdə Xəzər Universiteti ilə yanaşı, UFAZ, ADNSU, BMU, AzTU universitetlərinin rektor, prorektor və dekanları iştirak edirdilər.

Bu il proqrama 220 tələbə müraciət etmişdi. 9 universitet üzrə 88 tələbə proqramı uğurla başa vuraraq, sertifikat əldə etdi. Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin 2 tələbəsi –Ayan Babakişiyeva (Neft-qaz mühəndisliyi, 3-cü kurs) və Əbdülhüseyn Həsənov (İnşaat mühəndisliyi, 3-cü kurs) bu layihəni uğurla tamamladı. Sertifikatları onlara BANM-ın rektoru Elmar Qasımov və Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin akademik işlər üzrə dekan müavini Fəxrəndə Əlimərdanova təqdim etdilər.

On November 14, ceremony of awarding Certificates to students who successfully completed the "Business Education for Engineers Program", implemented with the participation and financial support of BP Azerbaijan and Baku Higher Oil Schoo (BHOS), aimed at supporting the advancement of students studying engineering at local universities, was held at BHOS. Along with Khazar University, the event was attended by the Rectors, Vice-Rectors and Deans of UFAZ, Azerbaijan State Oil and Industry University, BSU, AzTU Universities.

220 students applied for the program this year. 88 students from 9 universities successfully completed the program and received a certificate. Two students from the School of Science and Engineering at Khazar University - Ayan Babakishiyeva (Oil and Gas Engineering, 3rd year) and Abdulhuseyn Hasanov (Civil Engineering, 3rd year) completed the project. The certificates were presented to them by Elmar Gasimov, Rector of BHOS, and Fakhranda Alimardanova, Deputy Dean for Academic Affairs, School of Science and Engineering at Khazar University.



## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ KONFRANSDA ÇIXIŞ ETDİ

## PSYCHOLOGY DEPARTMENT INSTRUCTOR DELIVERED TALK AT CONFERENCE

Noyabrın 16-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Green Start Academy və "Gənclərin töhfəsi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Beynəlxalq təhsil modellərinə praktik yanaşma" adlı elmi-praktiki konfansda məruzəçi kimi çıxış etdi. Təhsil psixologiyasından danışan N.Əlizadə təhsil psixologiyasının tətbiqinin İngiltərə təcrübəsi ilə Azərbaycan modeli arasındakı fərqləri göstərdi və auditoriyada əyləşən müəllim, direktor və məktəb psixoloqlarına işlərində istifadə edə biləcək praktiki məlumatlar verdi.

Konfransda Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin əməkdaşı Afət Süleymanova və Azərbaycan Respublikası Təhsil İnstitutunun baş mütəxəssisi Kifayət Məmmədova "Təhsilin inkişafı: Respublikada və beynəlxalq aləmdə", 60 nömrəli tam orta məktəb və Azərbaycan Dövlət Dəniz Akademiyasının müəllimi Şirin Məmmədova "Finlandiya və Azərbaycan təhsil sistemləri arasında aparılan paralellər" mövzularında çıxış etdilər.

On November 16, Nilufar Alizadeh, an instructor and PhD student at the Department of Psychology at Khazar University, gave a talk at a scientific-practical conference titled "Practical Approach to International Education Models" organized by Green Start Academy and the Youth Contribution Public Association. Speaking about educational psychology at practical conference N. Alizadeh demonstrated the differences between English practice and Azerbaijani model of application of educational psychology and provided practical information that could be used by the audience of teachers, principals, and school psychologists.

At the Conference, speeches were delivered by the representative of the Ministry of Education of the Republic of Azerbaijan Afat Suleymanova and a chief specialist of the Institute of Education of the Republic of Azerbaijan Kifayat Mammadova on "Education Development in the Republic and in the World", teacher of full secondary school No. 60 and Azerbaijan State Maritime Academy Shirin Mammadova on "Parallels between Finnish and Azerbaijani education systems ".

## TÜBİNGEN UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİNİN BİRGƏ HAZIRLADIQLARI LAYİHƏ TƏKLİFİ DAAD-IN QRANTINI ALDI

## PROJECT APPLICATION PREPARED BY TUBINGEN UNIVERSITY AND KHAZAR UNIVERSITY RECEIVES DAAD GRANT

Almaniyanın Tübingen Universitetinin Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamenti ilə hazırladığı layihə təklifi DAAD tərəfindən qrant aldı. Layihəyə uyğun olaraq 2020-ci il martın 2-dən 6-dək Xəzər Universiteti "Into an Uncertain Future? The EU and the Caucasus in 2040" (Qeyri-müəyyən bir gələcəyə? Avropa Ittifaqı və Qafqaz 2040-cı ildə) mövzusunda təşkil ediləcək vorkşopa ev sahibliyi edəcək.

Sözügedən vorkşopda Azərbaycan, Gürcüstan və Almaniyadan 21 tələbə iştirak edəcək. Workshop Tübingen və Xəzər Universitetinin müəllimləri və eləcə də, Romanın Beynəlxalq Əlaqələr İnstitutunun araşdırmaçısı tərəfindən aparılacaq.

Bir sıra saytlar bu barədə xəbər yaymışlar:

*https://azertag.az/xeber/Xezer_Universitetinin_ortaq_layihe_teklifi_DAAD_terefinden_qrant_alib-1363627*

*http://tehsilpress.az/index.php?newsid=45170#newsbase1*

və s.

A project application prepared by Tubingen University in Germany and Political Science and Philosophy Department of Khazar University received the DAAD grant. In accordance with the project, Khazar University will host the workshop entitled "Into an Uncertain Future? The EU and the Caucasus in 2040" to be held on March 2-6, 2020.

The workshop reserved 21 seats to senior Bachelor and Master students across Germany, Georgia, and Azerbaijan. The workshop will be led by staff from Tubingen University, Khazar University, and International Relations Research Institute in Rome (Instituto Affari Internazionali).

Number of country's website reported on this occasion:

*https://azertag.az/xeber/Xezer_Universitetinin_ortaq_layihe_teklifi_DAAD_terefinden_qrant_alib-1363627*

*http://tehsilpress.az/index.php?newsid=45170#newsbase1 və s.*

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "VAXTIN İDARƏ OLUNMASI" MÖVZUSUNDA MƏRUZƏ İLƏ ÇIXIŞ ETDİ

## PSYCHOLOGY DEPARTMENT TEACHER DELIVERED LECTURE ON "TIME MANAGEMENT"

Noyabrın 17-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Britaniyanın Azərbaycandakı səfirliyinin və AUKAA-nın dəstəyi ilə "Təhsil üçün əl-ələ - 2019" layihəsinin növbəti mərhələsində regionlardan seçilmiş 20 nəfər inşa müsabiqəsinin qaliblərinə qış düşərgəsində müxtəlif istiqamətlərdə şəxsi inkişaf təlimləri çərçivəsində "Vaxtın idarə olunması" mövzusunda məruzə oxudu.

Qeyd edək ki, qış düşərgəsi bir həftə müddətində davam etmiş və layihənin bağlanış mərasimi noyabrın 19-da Britaniya səfirinin iştirakı ilə "Landmark" otelində olmuşdur. Layihənin şərtlərinə uyğun olaraq, təlimlərdə psixologiya ixtisasına yiyələnmək istəyən iki şagirdə Nilufər Əlizadə bundan sonra superviziyalıq edərək, tələbə həyatlarını uğurla başa vurmalarına kömək olacaq.

On November 17, Nilufar Alizadeh, a teacher and PhD student at Department of Psychology at Khazar University delivered speech, within multi-directional personal development trainings, on "Time Management" to 20 winners of essay contest selected from the regions during winter school in the next round of the 2019 "Hand in hand for Education" project supported by the British Embassy in Azerbaijan and AUKAA.

It is worth noting that the winter camp lasted for a week and the closing ceremony of the project took place on 19th of November 2019, with the participation of the British ambassador at Landmark Hotel. According to the project terms, Nilufar Alizadeh will supervise two students who want to pursue a psychology degree in training and will then help them successfully complete their student life.




# MUĞAM İFAÇILIĞINDA YENİLİK

Uşaq vaxtlarımdan televizorda, xüsusən də radioda musiqiyə, musiqi haqqında verilişlərə baxır, qulaq asırdım. Xan Şuşinski, Şövkət Ələkbərova və Sara Qədimovanın ayaq üstündə birlikdə oxuduqları Qarabağ şikəstəsi (Moskva, 1959) o vaxtlardan yaddaşıma həkk olunub.

Mən həmişə müğənniləri, xüsusilə də muğam ustalarını ayrılıqda, təklikdə oxuyan görmüşdüm. Ona görə də, adını çəkdiyim bu 3 nəhəng musiqi ustadlarının birlikdə oxuması xoş bir yenilik idi. O vaxtlar hətta müğənnilər arasında da birlikdə oxuma halları yox idi. Bir qədər böyüdüyüm illərdə müğənnilər arasında birlikdə (daha doğrusu ikilikdə - duet) oxuma hallarına rast gəlməyə başladıq. Xüsusən də toy şənliklərində duetlər oxunmağa başlanmışdı. Bu hal sonralar peşəkar müğənnilər arasında da geniş yayılmağa başladı və indiyə qədər unuda bilmədiyim duetlər yarandı. Yaşar Səfərov - Elmira Rəhimova, Eyvaz Həsənov - Təranə Vəlizadə və s. duetlər belələrindəndir. Müğənni duetlərindən fərqli olaraq heç vaxt xanəndələrin, muğam oxuyanların duetinə rast gəlməmişdim.

İllər keçdi, musiqiyə olan həvəsimiz sevgiyə döndü.

Hamlet İsaxanlı “Futbol ehtirası, musiqi təranəsi və poetik hisslər bir-birinə qovuşanda” (Ramiz Mirzəyev haqqında xatirələrim) adlı məqaləsində yazır:

*“Xəzər universitəsində də musiqi və incəsənət sahəsində dərslər keçilir, tanınmış sənət adamları çalışırdılar. Arif Babayev muğam dərsi deyirdi (indi də davam edir). Bir gün “Arif müəllim, gəlin bir dəstə yığaq və bir dəstgah hazırlayaq” dedim. Arif müəllim əvvəlcə təəccübləndi: “necə yəni dəstə?”. Mən fikrimi izah etdim: “Rast” dəstgahını bir nəfər deyil, beş-altı nəfər xanəndə oxusun, hərə öz səsinə daha uyğun olan yeri oxusa, daha keyfiyyətli alınmazmı? Bəzi yerləri,*

*məsələn təsnifləri və ya onların bir parçasını, xor kimi hamı və ya xanəndələrin bir qismi birlikdə oxusun. Belədə muğam konserti həm də maraqlı və rəngarəng alınar, dinləyənlər də yorulmaz...". Arif müəllim ideyanı bəyəndi, gözəl səsli gənc xanəndələri topladı, məşqlər başlandı. Və nəhayət, Xəzər universitəsi "Dünya" konsert salonunda Rast dəstgahı musiqisevərlərə təqdim edildi* (bu konsert 2003-cü il dekabr ayının 8-də Xəzər universiteti "Dünya" konsert salonunda keçirildi – İ.İsaxanlı).

Çox qısa bir müddətdə bu hadisə bütün musiqi aləminə yayıldı, populyarlaşdı. O vaxt Neft-yağ zavodunun direktoru vəzifəsində çalışan, eyni zamanda AFFA-nın Prezidenti olan, indi haqq dünyasına qovuşmuş Ramiz Mirzəyev bu işi çox böyük istək, arzu və ehtirasla davam etdirdi. Hamlet İsaxanlının yuxarıda adı çəkilən məqaləsindən:

*"Muğam və ümumiyyətlə, musiqi ictimaiyyəti, görkəmli insanlar konsertə gəlmişdilər. Çox böyük rəğbət görən bu tamaşada Ramiz Mirzəyev də vardı, mənimlə yanaşı əyləşmişdi, hamı kimi o da böyük zövq aldı. Tamaşa qurtaranda "sən əla iş görübsən, yenilik etdin, bizi qabaqladın. Gərək biz də buna bənzər bir iş görək" dedi. Sonra Arif müəllimi və digər müğənniləri bir-bir təbrik etdi: "çox gözəldir, gəlin görək biz nə edək?". Mənim: "Ramiz müəllim, allah verib muğamlarımız çoxdur, bəlkə "Şur"u hazırlayasınız?" Fikrim deyəsən onun da, Arif müəllimin də xoşuna gəldi. Bir qədər keçdi. Neft-yağ zavodunun mədəniyyət sarayında Arif Babayevin başçılığı ilə Şur dəstgahı ifa olundu... Biz yenə də muğam möcüzəsinin xoşbaxt əsiri olduq".*

Beləliklə, Hamlet İsaxanlının ideyası və təşəbbüsü ilə baş tutan bu ifalar Ramiz Mirzəyevin təşəbbüsü ilə uğurla davam etdirildi. Bundan sonra Ramiz Mirzəyevin təşkilatçılığı, Arif Babayevin rəhbərliyi ilə bir neçə muğamlarımız, artıq daha böyük bir musiqi məbədində - Filarmaniyada ifa edildi.

Qeyd olunan bu konsertdə Arif Babayevin başçılığı ilə tanınmış xanəndələrimiz Aygün Bayramova, Nəzakət Teymurova, Firuz Səxavət, Cabir Abdullayev və Sevinc Sarıyeva iştirak edirdilər. Bu konsert ictimaiyyətdə, musiqi aləmində, peşəkar musiqiçilər arasında elə məşhurlaşdı ki, Arif Babayevin rəhbərliyi ilə bir neçə muğamlarımız lentə yazıldı, Zahid Quliyevin rəhbərliyi altında, səhv etmirəmsə, Şur dəstgahı ifa edildi, gənc muğam ustaları Təyyar Bayramov, İlkin Əhmədov və Güllü Muradova Segah muğamını böyük uğurla ifa etdilər.

2013-cü il 9-19 mart aralığında Azərbaycanda keçirilən "Muğam Aləmi" 3-cü Beynəlxalq Muğam Festivalında muğamlarımızın bu şəkildə oxunmasında bir pik səhifə oldu. "Rast", "Şur", "Segah", "Cahargah", "Bayatı-Şiraz", "Zabul Segah", "Mirzə Hüseyn Segahı", "Mahur Hindi", "Şüştər", "Humayun" və s. muğamlarımız müxtəlif heyətdə muğam ustalarımız tərəfindən böyük uğurla ifa edildi. Artıq muğam ustalarının bir yerdə dəstgah oxumaları populyarlaşmışdı və bu iş bu gün də çox uğurla davam edir.

Bu yazını yazmağda məqsədim muğam ifaçılığında yeniliyin tarixini bir daha xatırlatmaqdır. Həyatını təşəbbüsçülükdə keçirən, bir an belə təşəbbüssüz yaşaya bilməyən riyaziyyatçı alimin musiqi sahəsində yeni təşəbbüsçülüyü bizə muğam sənətimizdə möcüzəli bir yeniliyin şahidi olmaq imkanı verdi. Ancaq təəssüf ki, müxtəlif verilişlərdə, muğam ustalarından alınan müsahibələrdə bu haqda söhbət düşəndə ideyanın haradan, kimdən gəlməsi diqqətdən kənarda qalır. Bu isə tarixə biganəlikdir. Məqsədim bu biganəliyi aradan qaldırmaq idi.

**İsaxan İsaxanlı**

## DÖVLƏT STATİSTİKA KOMİTƏSİ YANINDA STATİSTİKA ŞURASININ ÜZVÜ PROFESSOR HAMLET İSAXANLI "AZADLIQ RADİOSU"NUN İDDİASINI TƏKZİB ETDİ

2019-cu il noyabrın 18-də "Azadlıq Radiosu" internet səhifəsində bəzi müstəqil təhlilçilərə də istinadən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi rəqəmlərinin siyasiləşmiş olması haqqında yazı dərc etmişdir.

Radionun sorğusuna cavab verən Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı bu iddianı aydın və qəti şəkildə təkzib etmişdir. Professor demişdir:

"Quruma heç bir siyasi təzyiq yoxdur. İlk toplantımızda sədrin özü bizə dedi ki, dövlət rəhbərliyi bizdən tələb edib ki, hər şey necə var elə olsun, dəqiq olsun. Çünki statistika mühüm göstəricidir, biz nə vəziyyətdə olduğumuzu bilməliyik ki, inkişaf proqramımızı quraq. Düşünsəm ki, orda vəziyyət başqa cürdür, heç vaxt oranın üzvü olmazdım."

Geniş məlumat aşağıdakı linkdə:

*https://www.amerikaninsesi.org/a/az%c9%99rbaycanda-ill%c9%99rdir-n%c9%99-artan-n%c9%99-d%c9%99-azalan-5-faiz-i%c5%9fsizlik-/5171156.html*

## PROFESSOR HAMLET ISAKHANLI, MEMBER OF THE STATISTICAL COUNCIL UNDER THE STATE STATISTICAL COMMITTEE, DENIED "AZADLIQ RADIO'S" ALLEGATION

On November 18, 2019, "Azadliq Radio" published an article in its website on the politicization of some figures of the State Statistical Committee of the Republic of Azerbaijan, referring to some independent analysts.

Professor Hamlet Isakhanli, member of the Statistical Council at the State Statistical Committee, the Founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, has categorically denied this allegation. Professor said:

"There is no political pressure on the organization. At our first meeting, the Chairman himself told us that the government vigorously requests us to make sure everything to be indicated as it is, i.e. accurate. Because statistics are an important indicator, we need to know where we are in order to build our development program. If I knew that the case is different, I would never became a member of the organization".

More detailed information at:

*https://www.amerikaninsesi.org/a/az%c9%99rbaycanda-ill%c9%99rdir-n%c9%99-artan-n%c9%99-d%c9%99-azalan-5-faiz-i%c5%9fsizlik-/5171156.html*

# PROFESSOR HAMLET İSAXANLI "İCTİMAİ RADİO"NUN CANLI VERİLİŞİNİN QONAĞI OLDU

# PROFESSOR HAMLET ISAKHANLI WAS GUEST OF "ICTIMAI RADIO"

Noyabrın 19-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "İctimai Radio"nun canlı verilişinin qonağı oldu. Səhər 11:00-dan 12:00-dək verilişdə geniş müsahibə verən professor İsaxanlı Xəzər Universitetinin tarixindən, onun dəyərləri və əsaslandığı modellər, üzləşdiyi problemlər, digər ali məktəblərlə müqayisədə tələbəyə yanaşmasından və universitetlə bağlı digər məsələlərdən ətraflı danışdı.

On November 19, Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, was the guest of the live broadcast on "İctimai Radio". Delivering an extensive talk in broadcasts from 11am to 12pm, Professor Isakhanli spoke about the history of Khazar University, its values and models, its challenges, its approach to students compared to other universities and other university-related issues.

# AZƏRTAC XƏZƏR UNİVERSİTETİNİN YENİ LAYİHƏSİ HAQQINDA XƏBƏR YAYMIŞDIR

# AZERTAC REPORTS ON THE NEW PROJECT OF KHAZAR UNIVERSITY

Xəzər Universiteti Türkiyənin "Tuana Projects" şirkəti ilə birlikdə Aktyorluq Məktəbi təşkil edəcək. Aktyorluq Məktəbinə Xəzər Universitetinin tələbələri ilə yanaşı, Bakı şəhərində yaşayan hər kəs yazıla bilər. Qruplar təşkil edildikdən sonra Türkiyənin tanınmış aktyorları həm dərsləri, həm də çəkilişləri həyata keçirəcəklər. Seçilmişlər Türkiyədəki filmlərdə rol alacaqlar.

2019-cu il noyabrın 19-da AZƏRTAC bu barədə xəbər yaymışdır:

*https://azertag.az/xeber/Xezer_Universiteti_Turkiye_sirketi_ile_birge_layihenin_icrasina_baslayir-1357093*

Khazar University in partnership with "Tuana Projects" of Turkey will establish an Acting School. Along with Khazar University students, anyone who lives in Baku can enroll to the Acting School. Once the groups are formed, well-known Turkish actors will perform both classes and filming. Those selected will play a role in Turkish films.

On November 19, 2019, AZERTAC reported the following:

https://azertag.az/xeber/Xezer_Universiteti_Turkiye_sirketi_ile_birge_layihenin_icrasina_baslayir-1357093



# XƏZƏR UİVERSİTETİNDƏ MƏFAM`IN TƏQDİMAT MƏRASİMİ

# MƏFAM PRESENTATION CEREMONY AT KHAZAR UNIVERSITY

Noyabrın 19-da Xəzər Universitetinin "Neftçilər" kampusunda Mövlana Ədəbi- Fəlsəfi Araşdırmalar Mərkəzinin (MƏFAM) təqdimat mərasimi keçirildi. MƏFAM`ın təşkilatçısı Xəzər Universiteti, himayəçisi NAB Holdinq`dir. Mərkəzin yaradılmasından əsas məqsəd Mövlana Cəlaləddin Rumi`nin Azərbaycan ictimaiyyətinə müvafiq şəkildə təqdim edilməsi, onun fəlsəfə, ədəbiyyat və digər fəaliyyət sahələri ilə bağlı araşdırmalarının aparılması, ölkə daxilində və onun hüdudlarından kənarda yerləşən universitetlər, institutlar, kitabxanalar, təhsil mərkəzləri və ədəbi araşdırma mərkəzləri arasında əməkdaşlıq yaradılmasıdır.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova və əməkdaşları, NAB Holdinq`in vitse-prezidenti Şəhram Oromi, tanınmış qonaqlar, şairlər, müğənnilər və musiqiçilər iştirak edirdilər.

Mərasimi geniş çıxışı ilə professor Hamlet İsaxanlı açaraq, sözü Şəhram Mohəqqeq Oromi`yə verdi (*çıxışlar jurnalın 22-25-ci səhifələrində dərc olunur*).

Çıxışlardan sonra təşkilatçı Xəzər Universiteti ilə himayəçi NAB Holdinq arasında birgə fəaliyyət haqqında müqavilə imzalandı.

Tədbir musiqinin müşayiəti ilə Mövlana şeirlərinin qiraəti ilə davam etdi.

Sonda MƏFAM`ın təqdim olunan loqotipləri nümayiş etdirildi və ilkin seçim aparıldı.

AZƏRTAC tədbir haqqında xəbər yaymışdır:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_Movlana_Adebi_Felsefi_Arasdirmalar_Merkezinin_achilisi_olub-1357525*

On November 19, an presentation ceremony for MƏFAM (Mawlana Center for Literary Philosophical Research Center) was held at Khazar University's Neftchiler campus. The organizer of MƏFAM is Khazar University and sponsor is NAB Holding. The main purpose of establishing the Center is Mawlana Jalaladdin Rumi's proper presentation to Azerbaijani public, conducting research on his philosophy and works in the field of literature as well as activities in other fields, the establishment of cooperation between universities, institutes, libraries, educational centers and literary research centers both within and outside the country.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Associate Professor Irada Khalilova, Rector of Khazar University, and Shahram Oromi, NAB Holding Vice President, as well as Khazar University staff and well-known guests, poets, singers, and musicians participated in this event.

Prof. Hamlet Isakhanli opened the event delivering an extensive speech and gave the stage to Mr. Shahram Mohaghegh Oromi (speeches published on pages 22-25 of the Journal).

After the speeches the Agreement of Collaboration was signed between Khazar University and Nab Holding.

The event continued with the recitation of Mawlana's poems accompanied by music.

At the end there was a logo exhibition presented by MƏFAM and a preliminary selection was made.

AZERTAC spread information on the event:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_Movlana_Adebi_Felsefi_Arasdirmalar_Merkezinin_achilisi_olub-1357525*



















# MÖVLANA ƏDƏBİ-FƏLSƏFİ ARAŞDIRMA MƏRKƏZİ

**Hamlet İsaxanlı**

*19 noyabr 2019*

*Əziz dostlar,*
*Hörmətli iş adamları, elm və sənət adamları,*
*Hörmətli müəllimlər və tələbələr,*

Xəzər Universiteti nəzdində Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzinin (MƏFAM) açılış mərasiminə xoş gəlmisiniz!

Xorasanlı ruhani və ilahiyyatçı Bəhaəddin Vələd`in 1207-ci il sentyabrın 30-da Möminə xatundan oğlu oldu, adını Məhəmməd qoydular. Bir az sonra atası onu Cəlaləddin deyə çağırmağa başladı. Bahaəddin ailəsi ilə Məkkəyə getdi, dönəndə Anadoluda qalmağı qərara aldı, sonda Konya şəhərini seçdi, ömrünün sonuna qədər (1231, fevral) orada yaşadı. Cəlaləddin Suriyada mədrəsədə oxudu, dini-hüquqi təhsil aldı, Konya`ya qayıdıb mədrəsələrdə dərs verməyə başladı.

1244-cü il noyabrın 29-da (775 il əvvəl) Şəmsəddin (qısaca: Şəms) Təbrizi Konyaya gəldi, özü ilə poeziya, musiqi və rəqs (səma) gətirdi. Bu zaman Cəlaləddin`in 37, Şəmsin, deyilənə görə, 60 yaşı vardı. Əsl adı Məhəmməd olan Mövlana ilə əsl adı Məhəmməd olan Şəms görüşdülər, Şəms-Mövlana fenomeni yarandı. Bu görüş və sonrakı dostluq Cəlaləddinin ruhunu dəyişdi, Şəms bunu "məndə elə bir şey vardı ki,... başqaları onu məndə görə bilməmişdilər; bax, Mövlana onu məndə gördü" kimi ifadə etmişdi. Cəlaləddin yeni həyata qədəm qoydu, şairliyə başladı, qəzəl, lirik şeirlər yazdı; əvvəl şeir yazdığı məlum deyil, hər halda bu işdə fəal olmayıb. Bu lirik şeirlər *Divan-i Şəms* və ya *Divan-i Kəbir* adı altında toplandı. Mövlana Cəlaləddin`in məşhur *Məsnəvi* və ya *Məsnəvi-i Mənəvi* əsərini 1261-62-ci illərdə yazmağa başladığı güman edilir.

Şəms Mövlana`ya misilsiz təsir etmişdir, bunu Mövlana özü də çox-çox və açıq ifadə etmişdi, məsələn, "sənin sayəndə yenidən gənc və nəşəli həyatıma qayıtdım", "Şəms, sənin Günəşinin (*Şəms* ərəbcə Günəş deməkdir – H.İ.) sayəsində biz Ay kimi parlayırıq". Şəms də Mövlana`ya rast gəlməsəydi, Mövlana onu şöhrətləndirməsəydi, indi Şəmsin kim olduğunu bilən çətin tapılardı. Tarixdə adları qoşa çəkilən şəxslər olmuşdur, biri digərini meydana çıxarmış və ikinci birincini vəsf etmiş, beləliklə, bir-birini şöhrətləndirmişlər. Sokrat və Platon, Şəms Təbrizi və Mövlana Cəlaləddin belə məşhur cütlər sırasında öndə dayanmışlar.

Mövlana Cəlaləddin sağlığında geniş şöhrət qazanmış, onun külli miqdarda tələbə və ardıcılları əmələ gəlmişdi. O, ondan sonra gələn, geniş yayılan, Mövləvi adı alan sufi hərəkatının, fırlanan, dövr edən, rəqs edən dərvişlər təriqətinin təsisçisi sayılır. Böyük mütəfəkkir şair 1273-cü il dekabrın 17-də 66 yaşında vəfat etdi.

*Təsəvvüf* və ya *sufi* adı alan mənəvi, əxlaqi, mistik ideyalar, fəaliyyət, cərəyan və təriqətlər İslam dünyasında geniş yayılmış, sosial, mədəni və siyasi həyata çox böyük təsir göstərmişlər. Xorasanlı (Tuslu) sufi filosof əl-Qəzali (1056/8-1111) və əndəlisli sufi filosof və şair İbn əl-Ərəbi (1165-1240) böyük sufi nəzəriyyəçiləri

sayılırlar. əl-Qəzali`nin *İhya' Ülum əl-Din* (Dini elmlərin dirçəlməsi) və onun farsca sadələşmiş şəkli olan *Kimya-yi Səadət*, İbn əl-Ərəbi`nin isə *Füsus əl-Hikəm* (Hikmətin üzük qaşları) adlı əsərləri çox məşhurdur. Sufizm poeziya içində böyük inkişaf tapdı və təbii ki, daha cazibəli oldu. Qəznəli Əbdülməcid Sənai (? - ? 1131/41), nişapurlu Fəridəddin Əttar (?1145-1221), haqqında söhbət etdiyimiz Mövlana Cəlaləddin, Azərbaycandan Mahmud Şəbüstəri (1287/8-?1320) və Nəsimi (1369-1417), xorasanlı Əbdürrəhman Cami (1414-1492) kimi böyük sufi şairlər olmuşdur.

Cəlaləddin *Məsnəvi*`sində məzmun, ədəbi üsul və ruh baxımından Qur`an`a çox əsaslanmış, həmçinin hədislərdən bəhrələnmişdi. Lakin, o, islam dini və düşüncəsi ilə məhdudlaşmırdı, digər dinlərə, xüsusi halda xristianlara qarşı xoşqılıqlı idi, "mən pərgaram, bir ayağım şəriətdədir, digəri bütün dinlərin üzərində gəzir" deyirdi. Mövlana özündən əvvəlki sufi şairlərdən, xüsusilə Şənai və Əttardan çox təsirlənmişdi, bunu açıqca və gözəl ifadə etmişdi, məsələn, "Əttar 7 məhəbbət şəhərini dolanıb gəzib, amma biz bir küçə keçmişik", "Əttar ruh idi, Sənai isə onun iki gözü. Mən isə Sənai və Əttarın izləri ilə gəlmişəm".

Məsnəvi hər beyti (qoşa misrası, iki sətri) ayrıca qafiyələnmiş şeir növüdür. Çağdaş mədəniyyətdə *Məsnəvi* deyən kimi Mövlana Cəlaləddin`in ölməz *Məsnəvi*`si ağla gəlir! Məsnəvi İlahi kitabdır, Könül kitabıdır, Hikmət kitabıdır, Eşq kitabıdır, Hekayə və Rəvayətlər kitabıdır, Həyat Dərsi kitabıdır. *Mövlana* alim adamlara verilən adlardan biri idi. Çağdaş mədəniyyətdə *Mövlana* deyəndə birinci növbədə böyük şair və mütəfəkkir Mövlana Cəlaləddin düşünülür. Qüdrətli xüsusi isimlər ümumi isimləri üstələdi! Bu qüdrətli şəxs Cəlaləddin Rumi, Mövlana, Mevlana, farslarda Mevlevi, Cəlaləddin Bəlxi kimi adlarla tanınır.

*Məsnəvi* 18 beytlik bir şeirlə, *Neyin şikayəti* ilə başlanır. Ayrılığın nə olduğu haqqında danışılır, əslindən uzaq düşən ney dilə gəlir, ağlayır. *Məni qamışlıqdan, neyistandan kəsdilər, ayırdılar, fəryadım kişini də, qadını da ağladır. Eşq atəşidir neyə düşdü. Mey də eşq coşqusudur. Kimdə bu atəş yoxsa o adam deyil, yox olsun o adam, onu ölmüş bil. Ney könüldür, səsi eşqin səsidir...*

Mövlana həm də rübailər müəllifidir. Ziya Afşar bu rübailəri (2 mindən artıq) Türkiyə türkcəsinə çevirib. Bu rübailəri oxuyarkən bəzilərini, istər-istəməz, Azərbaycan şeir ənənələrinə və dilinə uyğunlaşdırmaq fikrinə düşürəm. O rübailərdən biri:

*Nə qədər gendən, uzaqdan çıxacaqsan seyrə?*
*Biz kimik? Çarə tapan. Eşqsə bir biçarə.*
*Can nədir? Beşikdəki aciz, zəif bir körpə*
*Yaxşı, bəs könül nədir? Yurd-yuvasız avarə...*

Bu yersiz-yurdsuz möhtəşəm avarə üçün, yəni, könül üçün, bu möhtəşəm biçarə eşq üçün bir çarə tapmaq, bir yer-yurd açmaq yaxşı olmazmı?!

11 iyun 2019-cu ildə Türkiyədən dəvət etdiyimiz professor Ziya Afşar bizim *Elm və Sənət Məclisi*`mizdə *Mevlana`nın Eşq və İrfan Dünyası* adlı məruzə etdi. Bu məclisə dəvət olunanlar arasında Nab Holding`in, Nab Ailəsinin liderlərindən olan həyat və eşq dolu dostum Şəhram bəy də vardı. Eşq yoxsa, böyük iş görülməz, eşq yoxsa, adam öz sərhədini aşa bilməz, özündən keçə bilməz. Eqoizmi üstələyən altruizm eşqin qalıb gəlməsidir. Saib Təbrizi bunu belə ifadə etmişdi:

*Eşqin ilk şərti budur, Saib, özündən keçəsən*
*Kim özündən keçəcək, o, tutacaq burda qərar.*

Və Şəhram bəy Xəzər Universitetində Mövlana Araşdırma Mərkəzinin açılması barədə fikir ortaya atdı, buna dəstək verəcəyini, arxa duracağını dedi. Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzinin tarixini o gündən saymaq lazımdır. Hazırlıq işləri görüldü, bu gün açılışdır. Bu Mərkəz geniş mənada ədəbiyyatın fəlsəfi və psixoloji aspektlərini, ədəbi hikməti araşdıracaq. Mövlana Ədəbi-Fəlsəfi Araşdırma Mərkəzinin inkişaf edib, böyük bir İnstituta çevrilməsini arzu edirəm. Bu mərkəzin yaradılması, həmçinin, elm və iş dünyası bir-birinə yaxınlaşsa nələr ola biləcəyini göstərən yaxşı bir örnəkdir.

Mövlana demişkən, "Sözü qısa kəsmək gərək, vəssəlam" və sözü Şəhram bəyə verirəm.



# MÖVLANA ƏDƏBİ-FƏLSƏFİ ARAŞDIRMA MƏRKƏZİ

**Şəhram Mohəqqeq Oromi**

*19 noyabr 2019*

*Əziz toplantı iştirakçıları,*
*Hörmətli elm və sənət nümayəndələri,*
*Hörmətli müəllimlər və tələbələr,*

Sizləri Xəzər Universiteti tərkibində yaradılmış Mövlana Ədəbi Fəlsəfi Araşdırma Mərkəzinin açılış mərasimində görməyə çox şadıq.

İlk öncə Azərbaycan Republikasının elmi və ictimai həyatında böyük nüfuza malik, Xəzər Universitetinin qurucusu professor Hamlet İsaxanlıya cəmiyyətin maarifləndirilməsi sahəsində atılan addımlara dəstək verməsinə və Universitetin nəzdində Mövlana Ədəbi Fəlsəfi Araşdırma Mərkəzinin açılmasına yardım göstərməsinə görə dərin təşəkkürlərimi bildirirəm.

Sizə Mövlana ilə müasir nəsl arasında olan bağlılıqlardan, Mövlananın müasir Avropa gənclərinin düşüncələrini necə fəth etməsindən söz açmaq istəyirəm.

Söhbət Avropa cəmiyyətindən olduğu üçün bu sahədə geniş zəhməti olan və Avropaya Mövlananı tanıdan şəxs barəsində məlumat vermək istərdim. Bu məşhur şərqşünas alim Reynold Nikolson`dur. Ömrünün ən gənc yaşlarından ərəb və fars dilləri üzrə mütəxəssisə çevrilmiş Reynold Nikolson Avropanın ən tanınmış universitetlərində tədris etmiş və 1926-cı ildən 1933-cü ilədək Kembric Universitetinin Ərəbşünaslıq kafedrasının müdiri olmuşdur. Ərəb və fars dillərində məşhur əsərləri araşdıraraq, ingilis dilinə tərcümə etmişdir. Amma onun ən böyük və əhəmiyyətli işi Mövlana`nın Məsnəvi əsərinin tərcüməsi və ingilis dilində açıqlamasıdır. 1925-1940-cı illər ərzində ərsəyə gəlmiş bu kitab səkkiz cilddə çap edilmişdir. Bu əsər Reynold Nikolson`un fars dili və ədəbiyyatı, İslam fəlsəfəsi, əxlaqı, məzhəbləri, hədislər və sair mövzular barəsindəki əvəzolunmaz biliklərindən xəbər verir.

Mövlana və onun düşüncələri müasir Avropa-Amerika gənclərinin təfəkkürünə, düşüncə tərzinə çox təsir etməkdədir. Son neçə illərdə Amerikada ən çox satılan kitablar arasında Mövlananın "Məsnəvi-i Mənəvi" əsərinin birincilərdən olması bizim sözümüzü bir daha təsdiq edir. Amerikada, Avropada Mövlananın şah əsərinin satılmadığı kitab mağazasına rast gələ bilmərik.

Amma belə bir sual meydana çıxır ki, son illər ərzində Amerika və Avropada İslam dininə qarşı bu qədər radikallıq olduğu və insanların İslam dininə belə qəti etirazlarla yanaşdığı zamanda əslində İslam mütəfəkkiri olan Mövlananın Məsnəvi əsərinə, onun düşüncəsinə, mənəvi baxış tərzinə olan bu sevgi haradan qaynaqlanır? Mövlananın müsair Avropa-Amerika gəncləri və insanları tərəfindən bu qədər sevilməsinin səbəbi nədir?

Demək lazımdır ki, modernləşmənin və inkişafın iki fərqli siması və tərəfi var: işıqlı və qaranlıq. Modernləşmənin işıqlı tərəfindən söz açsaq texnologiyanın sürətli inkişafından, elmi nailiyyətlərdən, insanların əldə etdiyi rifahdan, rahatlıqdan və sairdən söz aça bilərik. Qaranlıq tərəfindən danışmaq istəsək insanların ruhi, psixoloji, mənəvi boşluqlarından, ümidsizliklərindən, həqiqi sevinc və şadlıqdan uzaq olmalarından söz aça bilərik.

Müasir nəsildə stress, depressiya, ümidsizlik, həyata küskünlük, şad ola bilməmək, bir-birindən

uzaqlaşmaq, yadlaşmaq kimi problemlər kəskin şəkildə gözə çarpır. Müasir nəsl tarixdə indiyədək ən güclü rifah içərisində yaşayan bir nəsildir. Amma bu rifah və maddi rahatlıq baxımdan hər şeylə təmin olma onları xoşbəxt və şad edə bilirmi? Dünyada, əsasən Qərb ölkələrində depressiyaya düşən insanların sayı günü-gündən artır. Eyni zamanda, depressiyaya düçar olan insanların yaş dərəcəsi də azalır. Amerikada məktəbəqədər hazırlıq kurslarında təhsil alan uşaqların dörddə biri depressiyadan əziyyət çəkir. Müasir insanlar mənəvi böhranla üz-üzədir və onları bu böhrandan çıxara biləcək yollar axtarırlar.

Mövlana Cəlaləddin 800 il öncə Şərq dünyasında yaşamasına baxmayaraq, onun təfəkkürünü, mənəvi aləmini, irfani baxışlarını büruzə verən dərin sözləri Qərb dünyasında olan insanların mənəvi boşluqlarını müəyyən edir və onlara düzgün yol göstərməklə həmən boşluqları doldura bilir. Mövlananın təfəkküründən əmələ gələn şəfalı meyvələr müasir tələblərə, dərin istəklərə cavab verir və onların mənəvi susuzluğunu söndürərək, yeni həyat bağışlayır.

Mövlananın Məsnəvi əsəri "Məsnəvi-i Mənəvi" adlandırıldığına görə mənəviyyat barəsində də söz açmağı özümə borc bilirəm. Bir çoxları mənəviyyatı dinlə əlaqələndirməyə çalışırlar. Bu iki məfhum bir-birinə zidd olmasa da, bir-birindən fərqlidir. Bir insan dindar olsa da, mənəviyyat baxımından kasıb ola bilər. Eləcə də, tam əksinə, biri xüsusi bir dinin davamçısı olmasa da, metafizik məfhumlara (axirət, qiyamət kimi) mənəviyyat baxımdan həddən çox zəngin ola bilər. İnsanın mənəviyyatının əsas iki göstəricisi var. Birincisi indi və burada olmasıdır. Yəni, nə keçmişlə, nə də qeyri-müəyyən olan gələcəklə işi olmamasıdır. İkincisi, mənəvi insanlar zahirdən batinə və reallıqdan həqiqətə doğru hərəkət edən insanlardır.

Biz materializmin bizə göndərdiyi mesajlara diqqət yetirsək, bu məsələləri açıq-aydın şəkildə dərk edə bilərik. Materializmin mesajları: "Mənim dediklərimi düzgün yerinə yetirsəniz, rahatlıqda və rifahda yaşayacaqsınız. Sizin bütün maddi ehtiyaclarınızı, o cümlədən ev, maşın, parlaq həyat, pafoslu yaşayış və başqalarının həsrətlə izlədiyi ömürlə təmin edə bilərəm." Belə insanlar zahirən özlərini xoşbəxt hiss edirlər və mənəviyyatları olmamaları səbəbindən bu xoşbəxtlik tez yanıb sönən qığılcım kimidir və qalıcı deyildir.

Mənəviyyatın isə zahirlə işi yoxdur və insanın daxili aləmi və batini ilə əlaqədədir. İnsan çölünü və zahiri dəyişmək istəyirsə, ilk olaraq daxili aləmini dəyişməlidir. Bu mənəvi dəyişiklik olarsa, insanın davranışlarında və başqalarına qarşı olan münasibətlərində də özünü büruzə verəcəkdir. İnsanın öz daxilindəki çaxnaşmaları yatırtmaq və rahatlığa çatması üçün isə sülhün dörd mərhələsini keçməsi lazımdır:

1. İnsanın özü ilə barışığa və sülhə çatması;
2. İnsanın başqaları ilə sülhə çatması;
3. İnsanın ətraf aləmlə və bütün ekosistemlə sülhə çatması;
4. İnsanın Allahla sülhə və barışığa çatması.

Sülhün və barışığın hər dörd mərhələsini keçərək hamı ilə sülhə çatmış şəxs isə saleh və mənəviyyatının bütün çıraqlarını yandıraraq həyatını bu işıqlarla nurlandıran şəxsdir.

Mütəfəkkirlərin sözlərinə əsasən güclü mənəviyyatla biz dörd xüsusiyyət əldə etmiş oluruq:

1. İçimizdə və daxilimizdəki rahatlıq hissi;
2. Daxili aləmimizdən və içdən gələn sevincə,şadlığa, həyəcana qovuşmaq hissi;
3. Həyatda ümidlə yaşamaq və nikbin olmaq hissi;
4. İnsanın daxildən razılığa çatması, özünü puç və mənasız varlıq kimi qəbul etməmə hissi.

Mövlana bütün bunları yaşadığı üçün Məsnəvi əsərini də mənəviyyat üzərində qurmuşdur və bu əsər Mövlananın öz şəxsi mərifətinin məhsuludur. Bu cəhətdən də, Mövlananın bütün əsərləri insanları mənəvi aləmlərinin gücləndirilməsi sahəsində ən öndə gedən əsərlərdəndir. Hər kim Mövlananın əsərlərindən dadarsa və önun dadını düzgün anlayarsa, mənəvi aləmini zənginləşdirmiş və dörd sülhə çatmış insan olar.

Mövlananın öz əsərlərində insanın bütün ruhunu və mənəviyyatını dindirə biləcək çox hikmətli kəlamlar var. Sözümü daha çox uzatmadan Mövlananın bir neçə hikmətli sözləri ilə bəhsimi başa vurmaq istəyirəm:

- *Eşq sandığın qədər deyil, yandığın qədərdir.*
- *Küsmək və sıxılmaq üçün bəhanələr axtarmağın əvəzinə sevmək və sevilmək üçün çarələr axtar.*
- *Ya göründüyün kimi ol, ya da olduğun kimi görün.*
- *Dünən ağıllıydım və dünyanı dəyişmək istədim. Bugün müdrikəm və özümü dəyişdirirəm.*
- *Çox insanlar gördüm üzərilərində libasları yox, çox libaslar gördüm içərilərində insan yox.*
- *Bəzi alimlərin Allahı isbat etməsinə təəccüb edirəm. Allahın varlığı sabitdir, sən əsl bəndə olmanı isbat etməyə çalış.*

## ÖLKƏNİN BİR SIRA SAYTLARI "MÜHƏNDİSLƏR ÜÇÜN BİZNES TƏHSİLİ" KURSUNU XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏLƏRİNİN DƏ BİTİRMƏSİ HAQQINDA XƏBƏR YAYMIŞLAR

## SEVERAL WEBSITES REPORT THAT KHAZAR UNIVERSITY STUDENTS COMPLETED THEIR "BUSINESS EDUCATION FOR ENGINEERS" COURSE

2019-cu il noyabrın 19-da ölkənin bir sıra saytları Bakı Ali Neft Məktəbinin (BANM) və BP şirkətinin birgə təşkilatçılığı ilə reallaşdırılan "Mühəndislər üçün biznes təhsili" layihəsinin növbəti kursunun uğurla başa çatması və sertifikat alanlar arasında Xəzər Universiteti tələbələrinin də olması haqqında xəbər yaymışlar.

Ətraflı məlumat aşağıdakı linklərdə:

*http://www.azerbaijan-news.az/view-177755/baki-ali-neft-mektebinde-muhendisler-ucun-biznes-tehsili-layihesi-ugurla-basa-catib*

*https://azertag.az/en/xeber/Baku_Higher_Oil_School_successfully_completes_next_Business_education_for_engineers_program-1356811*

*https://demokratikmusavat.com/article/en/189718*

*https://en.trend.az/azerbaijan/business/3150901.html*

On November 19, 2019, a number of local websites have spread news on the successful completion of the subsequent course on "Business Education for Engineers", a joint project of the Baku Higher Oil School (BHOS) and BP, reporting that among the recipients of the certificates there are Khazar University students.

More information at:

*http://www.azerbaijan-news.az/view-177755/baki-ali-neft-mektebinde-muhendisler-ucun-biznes-tehsili-layihesi-ugurla-basa-catib*

*https://azertag.az/en/xeber/Baku_Higher_Oil_School_successfully_completes_next_Business_education_for_engineers_program-1356811*

*https://demokratikmusavat.com/article/en/189718*

*https://en.trend.az/azerbaijan/business/3150901.html etc.*

## İNFORMASİYA AGENTLİKLƏRİ "XƏZƏR"İN KEÇMİŞ ƏMƏKDAŞININ YENİ TƏYİNATI HAQQINDA

## INFORMATION AGENCIES REPORT ON THE NEW APPOINTMENT OF FORMER KHAZAR UNIVERSITY'S EMPLOYEE

2019-cu il noyabrın 19-da ölkənin bir sıra saytları Xəzər Universitetinin keçmiş əməkdaşı ADU-nun prorektoru professor Əfqan Abdullayevin Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin Elm sektorunun müdiri vəzifəsinə təyin edilməsi haqqında xəbər yaymışlar.

Professorun təqdim edilən tərcümeyi-halında onun 1992-1995-ci illərdə Xəzər universitetində ingilis dili müəllimi, rektorun müşaviri, İngilis dili kafedrasının müdiri, Humanitar fakültənin dekanı vəzifələrində çalışdığı da göstərilir.

Geniş məlumat aşağıdakı linklərdə:

*https://www.fins.az/tehsil/210613/tehsil-nazirliyinde-yeni-teyinat.html*

*https://qaynarinfo.az/az/nazir-efqan-abdullayevi-yeni-vezifeye-teyin-etdi/*

*https://yenicag.az/ceyhun-bayramov-emr-imzaladi-teyinat/*

*https://interposta.info/olke/43709-fqan-abdullayev-thsil-nazirliyind-yeni-vzify-tyin-edilib.html*

*http://www.tezadlar.az/index.php?newsid=51379*

On November 19, 2019, a number of local websites reported that Professor Afgan Abdullayev, former employee of Khazar University, Vice-Rector of ASU, was appointed as the Head of Science Division of the Department of Science, Higher and Secondary Special Education at the Ministry of Education.

The biography of the Professor also shows that during the period from 1992 to 1995 he worked as an English teacher at Khazar University, advisor to the Rector, Head of the English Department, and Dean of the School of Humanities.

More information at:

*https://www.fins.az/tehsil/210613/tehsil-nazirliyinde-yeni-teyinat.html*

*https://qaynarinfo.az/az/nazir-efqan-abdullayevi-yeni-vezifeye-teyin-etdi/*

*https://yenicag.az/ceyhun-bayramov-emr-imzaladi-teyinat/*

*http://www.tezadlar.az/index.php?newsid=51379*





# DR. DAVUD KUHİNİN TƏQDİMATINDA SEMİNAR

Noyabrın 20-də Xəzər Universiteti Təlim və Tədris Mərkəzi ilə İngilis dili və ədəbiyyatı departamentinin birgə təşkilatçılığı ilə doktorant, magistr tələbələri və həmçinin, tədqiqatçılar üçün nəzərdə tutulmuş növbəti tədqiqat seminarı keçirildi.

Tədqiqat seminarı Azad İslam Universitetinin (İran) əməkdaşı Dr. Davud Kuhinin təqdimatında "Keyfiyyət tədqiqat metodları" mövzusunda idi. Dr. Kuhi təqdimatı zamanı keyfiyyət tədqiqat metodlarının seçilməsi, məlumatların toplanması, analizi və digər xüsusiyyətləri haqqında geniş məlumat verdi. Sonda müzakirələr oldu.

# SEMINAR DELIVERED BY DAVID KUHI

On November 20, a subsequent research seminar for PhD, master students and researchers was jointly organized by Khazar University Department of English Language and Literature and Training and Learning Center. The research seminar was delivered by Dr. Davud Kuhi, Faculty Member of the Islamic Azad University (Iran), on the "Qualitative Research Methods". During his presentation, Dr. Kuhi provided an extensive information on the selection of qualitative research methods, data collection, analysis and other features. At the end of the seminar discussions took place.







# TURAL MƏHƏRRƏMOV: "UCQAR KƏNDLƏRƏ GEDİB ÖZ TƏCRÜBƏMİZİ ŞAGİRDLƏRLƏ BÖLÜŞÜRDÜK"

*2019-cu il noyabrın 12-də bir sıra saytlar Heydər Əliyev adına Neft Emalı Zavodunun Ekologiya şöbəsinin rəis müavini, Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müəllimi Tural Məhərrəmovla geniş müsahibə dərc etmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.*

- **Ali təhsilinizi harada və hansı ixtisas üzrə almısınız?**

- 2009-2013-cü illərdə Milli Aviasiya Akademiyasında ixtisas olaraq Ekologiya mühəndisliyi, ixtisaslaşma olaraq isə Aerokosmik monitorinq sahəsi üzrə təhsil almışam. Bu dövr ərzində IDEA - "Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq" İctimai Birliyinin "Rio+20"-yə öz mesajını çatdır" esse müsabiqəsində 1-ci yerə və "Arzuladığın gələcək" layihəsində isə 2-ci yerə layiq görülmüşəm.

Üçüncü kursda iyun-sentyabr aylarında Azərbaycan Hava Yollarında (AZAL) təyyarə bələdçisi (stüard) olaraq çalışmışam. Belə ki, o zaman şirkət hər il müsabiqə yolu ilə 60 tələbəni yay tətili dövründə təyyarə bələdçisi kimi işə götürürdü. Bəzi vaxtlarda ayda 100 saat uçmaqla London, Paris, İstanbul kimi bir çox beynəlxalq istiqamətlərdə həyata keçirilən reyslərdə stüardlıq etdim. Həmin dövr ərzində insanlarla kommunikasiya, ünsiyyət qurmaq, insan psixologiyasına bələd olmaq baxımından böyük təcrübə əldə etmiş oldum. Tələbəlik vaxtlarında universitetlərarası yarışlarda cüdo üzrə Milli Aviasiya Akademiyasını təmsil etmişəm. Həmin universiadalarda güləşərək, ölkə üzrə ikinci və üçüncü yerlərə çıxmışam. Bakalavr təhsilini bitirəndən sonra isə təhsilimi xaricdə davam etdirməyi hədəfləyirdim.

- **Bu istək hardan qaynaqlanırdı?**

- Hər zaman bir məsələni vurğulayıram, insana həyatda düzgün istiqamət vermək çox vacibdir. Elə xaricdə təhsil almaq, ingilis dili öyrənmək həvəsim də bu cür yaranıb. Belə ki, əmim ABŞ-da təhsil alıb və xaricdə təhsil almağın əhəmiyyətini anlayaraq, məndə də bu həvəsi aşılayırdı. Daim ingilis dili bacarıqlarımı inkişaf etdirməyin zəruriliyini vurğulayırdı. Zaman keçdikcə harada oxumaq istədiyimi də artıq qətiləşdirmişdim. Xarici təhsilimi məhz Böyük Britaniyada almağı hədəfləyirdim. Xaricdə təhsil üçün hazırlaşan zaman, hər ehtimala qarşı, Azərbaycanda da magistraturaya qəbul olmaq üçün hazırlaşırdım. Eyni zamanda, iki yerə hazırlaşmaq çox çətin idi və həmin zaman həddindən artıq gərgin bir prosesdən keçirdim. Lakin yekunda belə gətirdi ki, həm xaricdə, həm də Azərbaycanda magistraturaya qəbul oldum.

- **Bu zaman hansı qərarı verdiniz?**

- Əsas hədəfim xaricdə təhsil olduğundan hansı qərarı verəcəyim bəlli idi. O zaman Milli Aviasiya Akademiyasının rəhbərliyi məsələyə anlayışla yanaşaraq, mənə bir illik akademik məzuniyyət götürməyə icazə verdi. Təhsilimi maliyyələşdirəcək proqram axtardığım zaman isə SOCAR-ın Xarici Təqaüd Proqramına rast gəldim. Hansı universitetə qəbul olmaq istədiyimi əvvəlcədən müəyyən etmişdim və xoşbəxtlikdən həmin təhsil ocağı şirkət tərəfindən təsdiq edilmiş siyahıda da vardı. Düzü, Xarici Təqaüd Proqramına müraciət edəndə müsbət cavab alacağıma bir az şübhə ilə yanaşırdım. Lakin çox obyektiv və şəffaf bir seçim prosesindən keçdim. Mənim üçün məhz bu proqram çərçivəsində təhsil almağımın ən böyük üstünlüyü isə o idi ki, təhsil alıb qayıdandan sonra SOCAR-da karyera qurmaq imkanı əldə edirdim.

Beləliklə, 2013-cü ildə Böyük Britaniyanın Nottinqem Universitetinə Ətraf mühit mühəndisliyi ixtisası üzrə magistratura təhsili almağa yollandım.

- **Tədris prosesi və adaptasiya ilə bağlı hər hansı çətinlikləriniz oldumu?**

- Elə ilk gündən tamamilə fərqli təhsil sistemi

ilə qarşılaşdım. Magistratura təhsilinin cəmi bir il olması da əlavə çətinlik yaradırdı. Təhsil sisteminə uyğunlaşmaq üçün, demək olar ki, vaxt yox idi. İlk gündən gərgin bir tədris prosesinə atılmalı oldum. Ələlxüsus birinci semestr dərslər çox çətin gəldi mənə.

Bu yerdə bir haşiyə çıxmaq istərdim. İngiltərəyə gedəndə qarşıma 3 hədəf qoymuşdum. Birinci o idi ki, təhsilimi müvəffəqiyyətlə bitirib, əldə etdiklərimi ölkəmdə tətbiq edim və paylaşım. İkinci hədəf olduğum yerdə Azərbaycanı layiqincə təmsil etmək, sonuncu məqsədim isə həyatımın bir hissəsi olan cüdoya davam edib, müvəffəqiyyət qazanmaq idi.

Bir müddət sonra tədris ritminə uyğunlaşıb, asudə vaxtımı paylaşdıra bildim və sosial fəaliyyətə vaxt ayırmaq imkanım yarandı.

Ondan başlayım ki, Mançestr şəhərində, təxminən, 100-dən çox azərbaycanlı tələbə oxuduğu halda, Nottinqemdə cəmi 8 tələbə idik. Sayımızın az olması bir yana, rəsmi qeydiyyatdan keçən tələbə cəmiyyətimiz də yox idi. Sonuncunun əhəmiyyətini isə "Azərbaycan günü"nün təşkili zamanı bilmiş oldum.

Belə ki, bir müddət tədbirin keçirilməsi üçün heç cür yer tapa bilmirdim. Nəhayət, italyanların kirayələdiyi iki zaldan birini bizə verməsi üçün inzibatçını yola gətirdim. Lakin azərbaycanlı tələbələrin rəsmi cəmiyyətinin olmamasını biləndən sonra fikrindən daşındı. Bu zaman ağlıma türk tələbələr gəldi. Türklərin rəsmi cəmiyyəti olduğu üçün onları razı saldım ki, zalı onlar icarəyə götürsün, biz isə tədbirimizi keçirək. Tədbirimiz Novruz bayramına həsr olunduğu üçün getdim Londonda yerləşən Azərbaycan restoranından şəkərbura və paxlava aldım. Sonra ayrı-ayrı şəhərlərdən milli bayraqlarımızı gətirdik. Milli yeməklərimiz, tariximiz, mədəniyyətimiz əks olunan broşürlər çap etdirdik. Tədbirimizə 200-dən çox qonaq gəldi. Sayımız az olduğundan stendlərin birində nigeriyalı dostum Macjay və sudanlı Talha qonaqlara Azərbaycan haqqında məlumat verirdilər. Yekunda çox keyfiyyətli tədbir və yaddaqalan bir gün təşkil edə bildik.

**- Bəs sonuncu məqsədinizə nail ola bildinizmi?**

- Nottinqemdə əksərən ingilislərdən ibarət olan bir cüdo cəmiyyəti vardı. Həmin cəmiyyətlə ilk tanışlığımın maraqlı bir tarixçəsi də var. Belə ki, əslində qara kəmər sahibi olsam da, əksər hallarda mənim üçün uğurlu olan sarı rəngli kəmərimlə güləşirdim. Burada da ilk dəfə tatamiyə çıxanda həmin kəməri belimə taxmışdım. Sparinq vaxtı məşqçiyə fənd atandan sonra güləşmək səviyyəmi görüb, mənə köməkçi məşqçi qismində tələbələri yarışa hazırlamaq təklif olundu və mən də razılıq verdim. Həmin dövr ərzində özüm də onlarla bərabər yarışa hazırlaşırdım. Nəticədə, Nottinqem şəhəri birinciliyində güləşməklə bürünc medal qazanaraq, son məqsədimə də çatmış oldum.

**- Azərbaycana qayıdandan sonra fəaliyyətiniz nədən ibarət oldu?**

- Əsas fəaliyyətim birmənalı şəkildə neft-qaz sənayesinə yönəlik idi. Lakin onu da özüm üçün müəyyən etmişdim ki, əsas işimi axsatmamaq şərti ilə öyrənmək, öyrətmək və sosial təşəbbüslər həyata keçirmək kimi istiqamətlərdə işimi davam etdirəcəyəm.

Ondan başlayım ki, qayıdandan cəmi bir həftə sonra Ekologiya mühəndisliyi ixtisası üzrə ikinci magistratura təhsilinə start verdim və magistraturanı fərqlənmə diplomu ilə bitirdim. 2017-ci ilin yanvar ayında isə yenə Milli Aviasiya Akdemiyasında Məsafədən aerokosmik tədqiqatlar ixtisası üzrə doktoranturaya qəbul oldum. Dissertasiya mövzusu kimi "Neft dağılmalarının ətraf mühitə təsirinin aerokosmik üsullarla qiymətləndirilməsi"ni seçdim. Disertasiyamı isə gələn il müdafiə etməyi planlaşdırıram.

Akademik fəaliyyətimin digər istiqaməti dərs demək oldu. Belə ki, 2016-cı ildən həftədə 1 dəfə iş vaxtından kənar axşam saatlarında Xəzər Universitetində bakalavrlara "Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit" (HSE) fənnini tədris edirəm. Dərsləri ingilis dilində Nottinqem Universitetində təhsil aldığım metodika üzrə aparıram. Tədris prosesini daha tez qavranan və maraqlı etmək üçün multimedia vasitələrindən və qrup işi tapşırıqlarından geniş istifadə edirəm. Bununla onlara nəzəri aşılanan biliklərin praktik nümunələrini göstərmiş oluram. Tədris prosesində kifayət qədər savadlı və maraqlı yanaşması olan tələbələrlə qarşılaşıram. Adama maraqlı, mürəkkəb suallar verirlər. Bəzən ətraflı və dəqiq cavabım olmayanda, sualı araşdırdıqdan sonra ya elektron məktub vasitəsilə, ya da növbəti dərsdə cavablandırıram. Bu zaman bir növ öz biliklərimi də təzələmiş və yeni məlumatlar öyrənmiş oluram.

**- Bəs ictimai fəaliyyətinizi davam etdirdinizmi?**

- 2005-ci ildən bu günə kimi fəaliyyətdə olan "Azərbaycan-Britaniya Məzunları" İctimai Bir-

liyinə (AUKAA) 2015-ci ildə dəvət olundum və sədr müavini kimi işə başladım. Bir müddət sonra idarə heyətinə üzv, 2018-ci ildə isə Birliyin idarə heyətinə sədr seçildim. Bir məqama xüsusi diqqət çəkmək istəyirəm. Reqlamentə görə, sədr iki illiyinə seçilsə də, Birliyə daim yeni nəfəs gəlsin deyə, centlmen sazişinə əsasən, bir il sonra istefa verdim. Bu prosedur bütün idarə heyəti üzvlərinə şamil edilir.

İctimai birlik olaraq Bakı və regionlarda müxtəlif ekoloji, təhsil, xeyriyyə layihələri həyata keçirmişik. Ekoloji layihələr çərçivəsində Azərbaycan Respublikasının Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində məktəblilər üçün "Ətraf mühitə dost və təhlükəsiz layihəsi" çərçivəsində tullantıların idarə olunması, kənd təsərrüfatının təbliği, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, tədris zamanı təhlükəsizlik qaydalarına riayət edilməsi və digər ekoloji problemlər ilə bağlı nəzəri və praktik təlimlər keçirdik. Ən çox üstünlük verdiyimiz isə şagirdlərin bütün təlimlərdə praktiki olaraq özlərinin də iştirak etmələri olmuşdu. Belə ki, şagirdlər külək turbinini, günəş panelini özləri istifadə edirdilər, plastik tullantılar üçün özləri qab düzəltdilər, məktəbin həyətində ağaclar əkib dekorativ əşyalar düzəldirdilər. Ən uğurlu layihələrimizdən biri "Təhsil üçün əl-ələ" layihəsidir. Belə ki, Britaniya məzunları ilə Azərbaycanın müxtəlif bölgələrinə, əsasən, ucqar kəndlərə gedib öz təcrübəmizi şagirdlərlə bölüşürdük. Bu zaman kiçik inşa müsabiqəsi də keçirərək, seçilən şagirdlər üçün Bakıda 5 günlük düşərgə təşkil edirdik. Düşərgədə öz sahəsində uğurlu olmuş bir çox mütəxəssislər şagirdlərlə təcrübələri paylaşırdı. Həmin layihəni istədiyimiz kimi effektiv həyata keçirmək üçün elə vaxt olub ki, büdcəmiz kifayət qədər olmadığından vəsaitlərə qənaət etmək üçün hətta rayonlara öz maşınlarımızla gedirdik və öz hesabımıza qidalanırdıq. Hazırda da davam edən bu layihənin məzunları ayrı-ayrı universitetlərdə tələbə olmaqla yanaşı, aktiv sosial fəaliyyətlə də məşğuldurlar. İctimai birlik olduğumuz üçün hər hansı kommersiya fəaliyyəti ilə məşğul ola bilmədiyimizə görə kənar maliyyələşmədən asılı idik. Həyata keçirdiyimiz layihələr əksərən Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin inzibati, Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin, Azərbaycan Respublikasının Gənclər Fondunun və "British Council Azərbaycan"ın maliyə dəstəyi sayəsində mümkün olub. Bu işləri görərkən hər hansı təmənna güdməsək də, insanın etdiklərinin qiymətləndirilməsi böyük motivasiyaverici amildir. Belə ki, 2018-ci ildə Azərbaycanda ilk dəfə olaraq "Study UK Alumni Awards" (Məzun Mükafatları) layihəsi keçirilirdi. Mən də AUKAA-da sədrlik etdiyim dövrdə yaxın dostlarımın, əsasən, idarə heyətində birlikdə çalışdığımız Orxan Kərimzadənin dəstəyi ilə həyata keçirdiyimiz çoxsaylı layihələr haqqında məlumatları təqdim etdim. Nəticədə "Study UK Alumni Awards" layihəsinin "Sosial təsir" nominasiyası üzrə qalib oldum. Mükafat fondu Britaniyada fərdi inkişaf kursu keçmək üçün 3 min funt sterlinq və AZAL vasitəsilə Bakı-London-Bakı istiqamətləri üzrə təyyarə bileti idi. Həmin mükafat vasitəsilə Britaniyanın London şəhərində 2 həftəlik nüfuzlu "NEBOSH Ətraf mühitin idarə edilməsi" kursunda iştirak edib, imtahandan müvəffəqiyyətlə keçdim və beynəlxalq sertifikat əldə etdim. Bu uğur, əslində, bir komanda işinin nəticəsi idi və həmin mükafat mənimlə bərabər layihələrin reallaşması üçün heç bir təmənna güdmədən əmək sərf edən hər bir kəsin idi. AUKAA-da sədr kimi fəaliyyətim başa çatsa da, hazırda həm orada, həm də Bakı Xəzər Rotary Klubunda bir çox layihələrə üzv və koordinator kimi dəstək olmağa çalışıram. Hazırda bir neçə xeyriyyə tədbirlərinin həyata keçirilməsi üzərində çalışırıq. Bununla yanaşı, mövcud ekoloji problemlərin aradan qaldırılmasına daha böyük töhfə vermək üçün bu yaxınlarda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında yaradılan İctimai Şuraya üzv seçildim.

**- Uğurdan söhbət düşmüşkən. Uğura aparan yolda hansı keyfiyyətlərin və faktorların varlığı vacibdir?**

- Mənə görə insanlarla düzgün kommunikasiya qurmaq, səmimi və dürüst olmaq, insan psixologiyasını anlamaq və motivasiyadan düşmədən çox çalışmaq ən mühüm keyfiyyətlərdir. Faktor məsələsinə gəlincə, ətrafında sağlam düşüncəyə və müsbət şəxsi keyfiyyətlərə sahib insanların olması əhəmiyyətlidir. Çünki insanı, ilk növbədə, onun çevrəsi formalaşdırır. Sonda bir məqama diqqət çəkmək istərdim. Bu günə kimi qazandıqlarım can atdıqlarımın və hədəflərimin çox az bir hissəsini təşkil edir. Daha böyük uğurlarımın hələ qarşıda olduğuna inanaraq, şəxsi inkişafım üçün məqsədyönlü şəkildə öz üzərimdə daha çox çalışıram.

*https://sonxeber.az/157910/ucqar-kendlere-gedib-oz-tecrubemizi-sagirdlerle-bolusurduk-musahibe*

*https://ann.az/az/ucqar-kendlere-gedib-z-tecrubemizi-sagirdlerle-blusurduk-msahibe/*

*https://qaynarinfo.az/az/ucqar-kendlere-gedib-z-tecrubemizi-sagirdlerle-blusurduk-msahibhttps://big.az/374446-ucqar_kendlere_gedib_oz_tecrubemizi_sagirdlerle_bolusurduk_-_musahibe.htmle/*



# İSVEÇRƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ
# SWISS AMBASSADOR AT KHAZAR UNIVERSITY

Noyabrın 21-də İsveçrənin Azərbaycan Respublikasında və Türkmənistanda səfiri Muriel Peneveyre, İsveçrə Əməkdaşlıq Ofisinin Azərbaycandakı Regional direktorunun müavini Simone Haeberli və ofisin milli proqram rəhbəri Zahir Əhmədov Xəzər Universitetində oldular.

Qısa kampus turundan sonra qonaqlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin rektoru dosent İradə Xəlilova ilə görüşdülər. Universitet haqqında qısa təqdimatdan sonra Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov qonaqları mərkəzin hazırkı fəaliyyəti və gələcək planları ilə bağlı məlumatlandırdı.

Səfirlik tərəfindən universitetin Kitabxana İnformasiya Mərkəzinə kitablar hədiyyə olundu.

On November 21, H. E. Muriel Peneveyre, Ambassador of Switzerland to the Republic of Azerbaijan and to Turkmenistan, Ms. Simone Haeberli, Deputy Regional Director of Swiss Cooperation Office in Azerbaijan, and Mr. Zahir Akhmadov, Swiss Cooperation National Program officer, visited Khazar University. After the campus tour the guests had a meeting with Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Associate Professor Irada Khalilova, Rector of the University. After a brief presentation about Khazar University, Mr. Ingilab Ahmadov, Director of Eurasia Extractive Industries Knowledge Hub, updated the guests about the Hub's current activities and future plans.

The Embassy has presented books to University's Library and Information Center.








# İSLAM AZAD UNİVERSİTETİ MÜTƏXƏSSİSİNİN "ELMİ MÜZAKİRƏLƏR VƏ TƏDQİQAT METODOLOGİYASI" MÖVZUSUNDA SEMİNARI

# SCHOLAR FROM ISLAMIC AZAD UNIVERSITY DELIVERED SEMINAR ON "SCIENTIFIC DISCOURSES AND RESEARCH METHODOLOGY

Noyabrın 21-i və 22-də Xəzər Universitetində Dr. Davud Kuhi "Elmi çıxışların hibridliyi: EAP tədqiqatı və pedaqogika və tədqiqat metodologiyasına təsirlər (interaktiv panel)" mövzusunda iki seminar keçirdi. Seminarları İngilis dili və ədəbiyyatı departamenti təşkil etmişdi. Seminarlarda professor-müəllim heyəti, magistrant və doktorantlar iştirak edirdilər. İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani giriş nitqi ilə çıxış edərək, iştirakçılara Xəzər Universitetində 2020-ci il martın 12-si və 13-də keçiriləcək "Dil, ədəbiyyat və dilçilik fəlsəfəsi" Beynəlxalq Konfransı haqqında məlumat verdi və qeyd edilən seminarın konfrans sənədlərinin hazırlanmasında iştirakçılara köməkçi olacağına ümid etdiyini bildirdi.

Açılış nitqini söylədikdən sonra Dr. Bahman Amani sözü seminarı aparan Dr. Davud Kuhiyə verdi. Uğurlu təqdimatları zamanı Dr. Kuhi iştirakçılara elmi mübahisələrin hibridliyi haqqında geniş məlumat verdi və pedaqogika və tədqiqat metodologiyası ilə əlaqəli interaktiv panel keçirdi.

Seminarın yekununda iştirakçılara sertifikatlar təqdim edildi.

On November 21-22, two seminars entitled "Hybridity of Scientific Discourses: Implications for EAP Research and Pedagogy and Research Methodology (interactive panel) were delivered by Dr. Davud Kuhi. The Seminars were organized by the Department of English Language and Literature. Staff members, MA students and PhD candidates attended the seminars. The Head of the English Language and Literature Department Dr. Bahman Amani gave the opening speech and provided the participants with information about the International Conference on the Philosophy of Language, Literature and Linguistics which is going to be held on 12-13 March 2020 at Khazar University and hoped that the said seminar would help the participants prepare the conference papers.

After delivering the opening speech, Dr. Bahman Amani gave the floor to the seminar holder Dr. Davud Kuhi. During his successful presentations, Dr. Kuhi provided the participants with considerable knowledge on the hybridity of academic/scientific discourses and conducted an interactive panel on pedagogy and research methodology.

At the end of the last seminar day, the certificates were tendered to the seminar participants.











# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI SANKT-PETERBURQDA BEYNƏLXALQ KONFRANSDA

# KHAZAR UNIVERSITY EMPLOYEE ATTENDED INTERNATIONAL CONFERENCE IN ST. PETERSBURG

Noyabrın 18-22-də Sankt-Peterburqda Avrasiya arxeologiyası üzrə görkəmli mütəxəssis Vadim Mixayloviç Massonun 90 illik yubileyinə həsr olunmuş "Avrasiya mədəni məkanında münasibətlər və qarşılıqlı münasibətlər kontekstində Şərqi Avropa, Orta Asiya və Cənubi Sibir antikaları (yeni məlumatlar və anlayışlar)" adlı beynəlxalq elmi konfrans keçirildi. Konfransda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin əməkdaşı dosent Roza Arazova, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Tufan Axundov və institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Xəqani Alməmmədov iştirak edirdilər.

Görkəmli alim, Orta Asiyanın qədim sivilizasiyalarını tədqiq edən V.Masson həmişə Azərbaycan alimləri ilə sıx əlaqədə olmuşdur. O, bir neçə dəfə Azərbaycanda olmuş, simpoziumlarda və konfranslarda iştirak etmiş, Rusiya Elmlər Akademiyasının Maddi Mədəniyyət İnstitutu və onun rəhbərlik etdiyi Orta Asiya və Qafqaz Bölməsi (1981-1992) Azərbaycan arxeoloqlarının yetişdirilməsi üçün bir növ məktəb olmuşdur. Azərbaycanlı tədqiqatçılar və aspirantlar çöl tədqiqat metodlarını mənimsəmək və iş təcrübəsi qazanmaq üçün məşhur Ceytun və Altıntepa abidələrində aparılan arxeoloji ekspedisiyalarda (qazıntılarda) iştirak etmişlər.

Konfransın açılışı və işi Dövlət Ermitajında və Rusiya Elmlər Akademiyası Maddi Mədəniyyət Tarixi İnstitutunda baş tutdu. Konfransda Rusiya, Türkmənistan, Gürcüstan, Azərbaycan, Tacikistan, Özbəkistan, Qazaxıstan, Almaniya, İtaliya, İran, Fransa və digər ölkələrdən olan alimlərin məruzələri dinlənildi.

Konfrans iştirakçılarına boş vaxtlarında Dövlət Ermitajı və Antropologiya və Etnoqrafiya Muzeyində olmaq imkanı verildi.

Beynəlxalq elmi konfransın materialları dərc edilmişdir.

Conference titled "In the Context of Relations and Mutual Relations in the Eurasian Cultural Space. Antiquities of Eastern Europe, Cnetral Asia and Southern Syberia (new data and definitions)", dedicated to the 90th anniversary of Patriarch of Eurasian Archeology Vadim Mikhailovich Masson, was held on November 18-22, 2019 in St. Petersburg. Conference was attended Rosa Arazova, Associate Professor of History and Archeology Department at Khazar University, Tufan Akhundov, Doctor of History Sciences, Senior Research Fellow at the Institute of Archeology and Ethnography of the ANAS, and Khagani Almammedov, PhD, Senior Research Fellow at the same institute.

V. Masson, a prominent scientist studying the ancient civilizations of Central Asia, has always been in close contact with Azerbaijani scholars. He has been to Azerbaijan several times, attended symposiums and conferences, and the Institute of Material Culture of the Russian Academy of Sciences and its Central Asian and Caucasus Department led by him (1981-1992) has been a kind of school for the training of Azerbaijani archeologists. Azerbaijani researchers and post-graduate students participated in archeological expeditions (excavations) at the famous Jeyton and Altintepa monuments to master the methods of field research and gain experience.

The opening and work of the conference took place at the State Hermitage and the Institute of Material History of the Russian Academy of Sciences. Many reports of scientists from Russia, Turkmenistan, Georgia, Azerbaijan, Tajikistan, Uzbekistan, Kazakhstan, Germany, Italy, Iran, France and other countries were heard at the conference.

Conference participants had the opportunity to visit the halls of the State Hermitage and Museum of Anthropology and Ethnography during their leisure time.

The materials of International Scientific Conference were published.

## BRÜSSELDƏKİ VRIJE UNİVERSİTETİNDƏ ALİ TƏHSİL İSLAHATI MÜTƏXƏSSİSLƏRİNİN GÖRÜŞÜ

## HERE MEETING AT VRIJE UNIVERSITY OF BRUSSELS

Noyabrın 21-22-də Xəzər Universitetinin İnkişaf direktoru, eyni zamanda ERASMUS+ Azərbaycan üçün Ali Təhsil İslahatı eksperti Raziyə İsayeva sosial inteqrasiyanın Flemiş Universitetinin beynəlmiləlləşdirmə strategiyasına necə daxil edilməsinə baxılması üçün Belçikanın Brüssel şəhərində yerləşən Vrije Universistetində keçirilən görüşdə iştirak etdi. Görüşdə Gent Universiteti, Antverpen Universiteti və Brüsselin Vrije Universitetinin aparıcı mütəxəssislərinin beynəlmiləlləşdirmə strategiyaları və sosial inteqrasiyanın tələbə hərəkətliliyinə, məlumatların toplanmasına və siyasi islahatlara necə təsir göstərdiyi barədə çıxışları dinlənildi.

Avropa Komissiyasının Beynəlxalq Əməkdaşlıq Birliyinin sənayeləşmiş ölkələr üzrə siyasət mütəxəssisi İrene Sabio Gallego ERASMUS+ çərçivəsində KA1 proqramının necə dəyişdiyi və hazırda sosial inteqrasiyanın hansı amillərini əhatə etdiyinə dair məruzə ilə çıxış etdi. Şərqi Qonşuluq, habelə, Orta Şərq və Balkanların 12-dən çox ölkəsindən gələn iştirakçılar hərəkətlilik proqramlarının problemləri və çağırışları, bu günə qədər tələbələrin hərəkətliliyinin sosial inteqrasiyanı necə əhatə etdiyini müzakirə etdilər.

Khazar University director of development Raziya Isayeva, who is also ERASMUS+ Higher Education Reform Expert (HERE) for Azerbaijan has participated in a study visit to Vrije University of Brussels, Belgium to have an insight of how social inclusion is imbedded in an internationalization strategy of Flemish Universities. The meeting involved speeches by key people of University of Gent, University of Antwerp and Vrije University of Brussels specifically about their internationalization strategies and how social inclusion has affected student mobility, data collection, and policy reforms.

Ms. Irene Sabio Gallego, Policy officer for industrialized Countries, International Cooperation Unit of European Commission delivered a speech on how the KA1 programme within ERASMUS+ has changed and what factors of social inclusion it now encompasses. The visitors coming from more than 12 countries of Eastern Neighbourhood and Middles East and Balkans discussed issues and challenges of mobility programmes and how the mobility of students so far included social inclusion.



## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "MƏN, SƏN, O" VERİLİŞİNDƏ

Noyabrın 22-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Azərbaycan Dövlət Televiziyasında yayımlanan "Mən, sən, o" verilişinin "Gənclərin uğur hekayəsi" rubrikasına müsahibə vermişdir.

Nilufər Əlizadə müsahibə zamanı xaricdə təhsilin faydaları, düzgün peşə seçimi, karyerada uğur qazanmaq kimi mövzulardan əlavə, Psixologiya departamentində tələbələrin də fəal iştirakı ilə keçirilən onları sosial problemlərə duyarlı və məsuliyyəli fərd kimi yetişdirməyə xidmət edən sosial layihələr haqqında da məlumat vermişdir. Qeyd edək ki, müsahibə zamanı Nilufər Əlizadənin müəllifi olduğu rəsmlər də yayımlanmışdır.

Verilişi bu link vasitəsilə izləmək olar: *https://www.youtube.com/watch?v=Q-cNp_Uraqo&t=684s*

## PSYCHOLOGY DEPARTMENT'S TEACHER HOSTED ON THE PROGRAM "I, YOU, HE/SHE"

On November 22, Nilufar Alizade, an instructor and doctoral student at Khazar University's Psychology Department, gave an interview to the youth success story program "I, You, He/She" broadcasted on Azerbaijan State Television.

During the interview, Nilufar Alizade, while covering such topics as the benefits of education abroad, the right career choices, and gaining career success, also spoke about the social projects implemented in the Psychology Department with the active participation of students, helping them develop a socially responsible and benevolent individuals. It should be noted that during the interview, the artistic pictures depicted by Nilufar Alizade, were also shown.

The program can be viewed at this link: *https://www.youtube.com/watch?v=Q-cNp_Uraqo&t=684s*



## ABŞ-IN AZƏRBAYCANDAKI SƏFİRLİYİ İLƏ ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ TƏHSİL MÜTƏXƏSSİSLƏRİ ÜÇÜN SEMİNAR

## WORKSHOP FOR INTERNATIONAL EDUCATION PROFESSIONALS IN PARTNERSHIP WITH THE U.S. EMBASSY IN AZERBAIJAN

Noyabrın 22-23-də Xəzər Universitetinin Buzovnadakı Konfrans və İstirahət Mərkəzində "Səmərəli və dayanıqlı tərəfdaşlıq yolu ilə ali təhsil bacarıqlarının qurulması" adlı seminar keçirildi.

Seminar ABŞ-ın Azərbaycandakı səfirliyi və Xəzər Universiteti tərəfindən 2019-cu il Beynəlxalq Təhsil Həftəsi çərçivəsində təşkil edilmişdi.

Montereydəki Middlebury Beynəlxalq Araşdırmalar İnstitutunun dosenti, beynəlxalq təhsil sahəsində 20 ildən çox təcrübəyə sahib olan Dr. David Wick seminarın keçirilməsinə təlimçi kimi dəvət olunmuşdu. Seminarda Azərbaycandan olan müəssisə və təşkilatlar üçün təhsil mübadiləsi və tələbə mobilliyi sahəsində tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək və dəstəkləmək qabiliyyətini qiymətləndirmək üçün iş nümunələri, panellər və qrup iclaslarından istifadə edildi.

Seminar zamanı iştirakçılar institusional imkanları araşdırdılar, ortaqlıq ehtiyaclarını təyin etdilər, potensial tərəfdaşları müəyyən etdilər, məlumatlandırma, idarəetmə və qiymətləndirmə strategiyası hazırladılar və digər interaktiv iclas və fəaliyyətlərə qatıldılar.

Seminar Mingəçevir və Gəncənin 3 regional universiteti də daxil olmaqla 20-dən çox yerli ali məktəbdən 30-dan çox mütəxəssisi bir araya gətirdi. Tədbirdə Azərbaycan Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin nümayəndələri və ingilis dili mütəxəssisləri iştirak edirdilər.

Seminarı uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olundu. Sertifikatları təlimçi Dr. David Wick və ABŞ-ın Azərbaycandakı səfirliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Mişel Peterson təqdim etdilər.

On November 22 and 23, a workshop entitled "Building Higher Education Capacity through Effective & Sustainable Partnerships" was held at Khazar University's Conference and Leisure Center in Buzovna.

The workshop was organized jointly by the U.S. Embassy in Azerbaijan and Khazar University within the International Education Week 2019.

Dr. David Wick, Assistant Professor at the Middlebury Institute of International Studies at Monterey, a professional with over 20 years of experience in the international education field, was invited to deliver the workshop. The workshop used case studies, panels, and group sessions to evaluate capacity for developing and sustaining partnerships for educational exchange and student mobility for institutions and organizations from Azerbaijan. During the workshop, participants examined their institutional capacity, determined their partnership needs, identified potential partners, developed an outreach, management, and evaluation strategy, and engaged in other interactive sessions and activities.

Workshop brought together over 30 professionals from more than 20 local HEIs, including 3 regional universities from Mingechevir and Ganja. Representatives from the International Cooperation Department of the Ministry of Education of Azerbaijan, as well as English Language Fellows participated in the workshop.

Participants who successfully completed the workshop were awarded with certificates. Certificates were presented by the trainer Dr. David Wick and Ms. Michele Peterson, Public Affairs Officer from the U.S. Embassy in Azerbaijan.














## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİNİN KİTABI NƏŞR OLUNUB

Noyabrın 23-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılış mərasimi oldu.

Pavilyonun açılışı ərəfəsində Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan" pavilyonunun tarixini əks etdirən "XTNS. "Azərbaycan" pavilyonu. 1939-2019" adlı kitab nəşr olunmuşdur (rus dilində: *"ВДНХ. Павильон "Азербайджан". 1939-2019". Баку, 2019, 199 стр.*). Kitabın hazırlanması və nəşri üzrə layihənin rəhbəri Anar Ələkbərov, koordinatoru Ülviyə Qasımova, məsləhətçi Rəşad Kərimovdur.

Kitabın mətninin müəllifi Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədovdur. Azərbaycan və Rusiya arxivlərinin, eləcə də, mövcud elmi ədəbiyyat əsasında yazılmış kitabda XTNS-dəki "Azərbaycan" pavilyonunun 1939-cu ildən bəri bütün tarix əks olunmuşdur. Burada, həmçinin, pavilyonun Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş kompleks bərpa işlərinin mərhələləri, eləcə də, pavilyonun müasir görünüşünü əks etdirən fotoşəkillər yer almışdır.

Kitab noyabrın 23-də əsaslı bərpa və təmirdən sonra "Azərbaycan" pavilyonunun açılış mərasimində iştirak etmiş bütün qonaqlara hədiyyə edilmişdir.

Qeyd etmək lazımdır ki, Moskva şəhərində ezamiyyətdə olmuş S.Əhmədov pavilyonda qurulmuş və Azərbaycanın maddi-mədəni sərvətlərini əks etdirən ekspozisiyasının tərtibatında yaxından iştirak etmişdir.

## BOOK BY TEACHER OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT HAS BEEN PUBLISHED

On November 23, the opening of the "Azerbaijan" Pavilion at the Moscow Exhibition of the National Economy Achievements, took place after the major overhaul and repair.

On the eve of the opening of the pavilion, the Heydar Aliyev Foundation presented the book entitled "VDNKh. "Azerbaijan" pavilion. 1939-2019" (in Russian language: "ВДНХ. Павильон «Азербайджан». 1939-2019". Баку, 2019, 199 стр.) The project preparation and publication Project Manager is Anar Alekperov, coordinator Ulviya Gasimova and consultant Rashad Karimov.

The author of the text of the book is Associate Professor Sabuhi Ahmadov, Teacher of History and Archeology Department, Doctor of Philosophy in History. The book, written with the reference to the resources, obtained from the Azerbaijani and Russian archives, as well as the existing scientific literature, covers the entire history of the "Azerbaijan" Pavilion in VDNKh since 1939. The work also includes the photographs, which reflects the stages of the complex's restoration work undertaken by the Heydar Aliyev Foundation, as well as photographs reflecting the modern look of the pavilion.

The book was presented to all guests who attended the opening ceremony of the "Azerbaijan" Pavilion on November 23 after major overhaul and repair.

It is worth noting that S.Ahmadov, who was on a business trip to Moscow, took part in the arrangement of an exhibition at the pavilion, that reflects Azerbaijan's material and cultural values.

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI SİMPOZİUMDA




Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova noyabrın 22-dən 24-dək Türkiyənin Ankara şəhərində yerləşən Boylam Psixiatriya xəstəxanasında professor Ertuğrul Köroğlunun rəhbərliyi ilə təşkil edilmiş Klinik Psixologiya və Psixiatriya Simpoziumunda (KLİPPS 2019) iştirak etdi.

M.Kərimova xaricdən dəvət edilən Rasional-Emosional Davranış Terapiyasının supervizoru Chyrsoula Kostagiannisin "REBT", Linehan İnstitutu təlimçisi Ahmed Abdelkerimin "Dialektik davranış terapiyası", MINT təlimçisi Graeme Horridgenin "İstəkləndirici görüşmə" təlimlərində iştirak etdi.

M.Kərimova, eyni zamanda, simpozium iştirakçılarına 2020-ci ildə təşkil ediləcək Azərbaycan VII Beynəlxalq Psixologiya Konfransı ilə əlaqəli məlumat verərək, dəvət edilməsi nəzərdə tutulan professor və müəllim heyəti ilə görüşdü.

# MEMBER OF PSYCHOLOGY DEPARTMENT AT SYMPOSIUM

From 22 to 24 January Melek Kerimova, Coordinator of the Khazar University Psychology Department and Head of Khazar Psychological Service Center, participated in the 2019 Clinical Psychology and Psychiatry Symposium (KLIPPS, 2019), organized by Prof. Ertuğrul Köroğlu at the Boylam Psychiatry Hospital in Ankara, Turkey.

M. Karimova participated at the trainings delivered by such experts as Chyrsoula Kostagiannis, a supervisor of the Rational-Emotional Behavior Therapy, on "REBT", Ahmed Abdelkerim, trainer of the Linehan Institute, on "Dialectical Behaviour Therapy", Graeme Horridgen, MINT trainer, on "Encouraging Meeting", which were invited from the abroad.

Karimova also informed the symposium participants about the VII Azerbaijan International Psychology Conference to be held in 2020 and met with professors and teachers to be invited to the Conference.





## "GƏLƏCƏYİNİ QUR!" LAYİHƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ

## "BUILD YOUR FUTURE!" PROJECT AT KHAZAR UNIVERSITY

Noyabrın 24-də "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi Xəzər Universitetinin "Neftçilər" kampusunda növbəti tədbirini həyata keçirdi.

Tədbiri açan layihənin koordinatoru Turan Cəfərova layihə ilə Xəzər Universitetinin əməkdaşlığından söz açdı. Tədbir Xəzər Universitetinin təqdimatı ilə başladı – Qəbul şöbəsinin rəhbəri Lamiyə Namazova tədbir iştirakçılarına universitet haqqında məlumat verdi, iştirakçıların suallarını cavablandırdı. Hazırda Xəzər Universitetinin tələbələri olan beş layihə məzunu da qısa çıxışlarda öz təcrübələrini bölüşdülər.

Tədbir layihənin altı dəyərlərindən biri olan "Məsuliyyət" mövzusuna həsr olunmuşdu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı gənclərin qarşısında çıxış edərək, mövzuya aid mühüm aspektlərdən danışdı. O, həmçinin, Xəzər Universitetinin qurulmasından və hər insanın Vətəni qarşısında olan məsuliyyətdən söhbət açdı.

Tədbirin digər spikerləri gənclərə mövzunun müxtəlif aspektlərinə dair təqdimatlar verdilər. Spikerlərin arasında EY Azerbaijan şirkətinin əməkdaşı Günel Fərəcova, insan resursları üzrə mütəxəssis Xəqani Səfərov, Avropa Azərbaycan Liseyinin müəllimi, psixoloq Hüseyn Həsənov, həmçinin, görmə qabiliyyətinin olmamasına baxmayaraq, dünyanın 3 aparıcı universitetinin məzunu (İngiltərənin Kembric və Oksford və ABŞ-ın Kolumbiya universitetləri) olan məşhur hüquqşünas Elnur Eyvazovda var idi.

2014-cü ildən fəaliyyət göstərən "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin cari – 6-cı ilində layihədə Bakının altı (Binəqədi, Qaradağ, Sabunçu, Suraxanı, Xətai və Xəzər) rayonundan və beş regiondan (Ağdaş, Hacıqabul, Kürdəmir, Ucar və Yevlax) 300-ə yaxın gənc iştirak edir. Layihə bir sıra yerli və xarici şirkətlərin korporativ sosial məsuliyyət siyasətləri çərçivəsində fəaliyyət göstərir.

On November 24, "Build Your Future!" Youth Support Project held its subsequent event at Khazar University's Neftchiler Campus.

The event was opened by Turan Jafarova, project coordinator, who spoke about partnership between "Build Your Future!" and Khazar University. Lamiya Namazova, Director of Admission Office at Khazar University, delivered a presentation about the University and answered participants' questions. Five alumni of the "Build Your Future!" Project who currently study at Khazar University also delivered short speeches about their experience.

The event was dedicated to responsibility, one of the six values of the project. Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, delivered his speech addressing the youth about the important aspects of the topic. He also talked about the founding of Khazar University and each person's responsibility for the development of their motherland.

Other speakers of the event delivered presentations focusing on the various aspects of the issue. Speakers included Gunel Farajova from EY Azerbaijan, Khaqani Safarov, an HR specialist, Huseyn Hasanov, a teacher and psychologist at Azerbaijan European Lyceum, and Elnur Eyvazov, a famous lawyer who, despite his visual impairment graduated from the world's top three universities, including University of Cambridge, University of Oxford (United Kingdom) and Columbia University (USA).

Established in 2014, "Build Your Future!" Youth Support Project is carried out within the corporate social responsibility policies of several local and international companies. Approximately 300 young people from Baku's 6 districts (Binaqadi, Khatai, Khazar, Garadagh, Sabunchu, and Surakhani) and 5 regions (Agdash, Hajiqabul, Kurdemir, Ujar and Yevlakh) participate in the project's current, 6th year.


IRON


KHAZAR UNIVERSITY


Təşəkkürlər
KHAZAR UNIVERSITY
Shift







## PROFESSOR HAMLET İSAXANLI İKİLİ DİPLOM PROQRAMINA MÜNASİBƏT BİLDİRDİ

## PROFESSOR HAMLET ISAKHANLI COMMENTED ON THE DUAL DEGREE PROGRAM

2019-cu il noyabrın 24-də *zerkalo.az* xəbər portalı Trend informasiya agentliyinə istinadla rus dili buraxılışında Dövlət Neft fondu, yerli və xarici hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulan ikili diplom proqramı haqqında ekspertlərin fikirlərindən ibarət analitik yazı (müəllif Elya Belskaya) dərc etmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da sorğunu cavablandıraraq, proqrama aid mülahizələrini bildirmiş, universitetin xarici ali təhsil müəssisələri ilə əlaqələrindən danışmışdır.

Geniş məlumat aşağıdakı linkdə:

*http://zerkalo.az/dva-diploma-odnovremenno/*

On November 24, 2019, the zerkalo.az news portal published an analytical report (by Elya Belskaya) with expert opinions on the Dual Degree Program to be financed by the State Oil Fund, local and foreign legal entities and individuals, with the reference to Trend News Agency's edition in Russian language. Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, also commented his considerations on the program and spoke about the university's relationship with foreign universities.

More information at:

*http://zerkalo.az/dva-diploma-odnovremenno/*

## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALININ 3-CÜ SAYI ÇAPDAN ÇIXIB




"Khazar Journal of Humanities and Social Sciences" (KJHSS) jurnalının yeni sayı (22-ci cild, 3-cü sayı, payız 2019) çapdan çıxıb. Jurnalın bu sayındakı məqalələr iqtisadiyyat, rabitə və dilçilik mövzularındadır. Məqalələri bu linkdə oxumaq olar: *https://jhss-khazar.org/*

KJHSS jurnalının oxunması, nəşrlərindən sitat gətirilməsi və çap üçün keyfiyyətli tədqiqat məqalələrinin təqdim edilməsi tövsiyə olunur (prioritet sahələr təhsil, dil/dilçilik/ədəbiyyat, beynəlxalq əlaqələr və siyasi elmlərdir).

Məqalə təqdim etmək haqqında geniş məlumatla bu linkdə tanış olmaq mümkündür: *https://jhss-khazar.org/author-guidelines/*

Hər hansı bir sualla bağlı elektron poçt ünvanına müraciət etmək olar. *KJHSS@khazar.org*

## 3RD ISSUE OF KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES RELEASED

The new issue (Vol. 22, 3rd issue, fall 2019) of Khazar Journal of Humanities and Social Sciences has been released. The published articles of this issue are from Economics, Communication and Linguistics. You can read the full articles here: *https://jhss-khazar.org/*

We encourage you to read KJHSS, cite from its publications, and submit your quality research papers for possible publication (the priority fields for now are Education, Language/Linguistics/Literature, IR &Political Sciences, and Political Economy). For more information about submission, please, see: *https://jhss-khazar.org/author-guidelines/*

Should you have any inquiries, please do not hesitate to contact us at *KJHSS@khazar.org*



# KADİ-AYYAD UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ VƏ MƏRAKEŞİN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ ƏMƏKDAŞLIQ GÖRÜŞÜ

# COOPERATION TALKS WITH THE REPRESENTATIVE OF CADI-AYYAD UNIVERSITY AND MOROCCAN AMBASSADOR IN AZERBAIJAN

Noyabrın 25-də Xəzər Universitetinin rəhbərliyi və fakültələri Mərakeşdəki Kadi Ayyad Universitetinin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Fatima Zohra İflahen və onu müşayiət edən Mərakeş Krallığının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Adil Embarch ilə görüş keçirdi. Görüş Mərakeş səfirliyi ilə əməkdaşlıq çərçivəsində təşkil edilmişdi. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Akademik işlər üzrə prorektoru professor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, İngilis dili departamentinin müdiri Bahman Amani, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Elmar Mustafayev, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova və qonaqlar qarşısında Xəzər Universitetinin təqdimatını edən Beynəlxalq Əlaqələr Ofisinin koordinatoru Lamiyə Pənahova iştirak edirdilər.

Görüş çərçivəsində riyaziyyat, fizika, bərpa olunan enerji, məlumat elmləri və uşaq təhsili sahələrində əməkdaşlıq barədə danışıqlar aparıldı. Bundan əlavə, tərəflər tələbə və işçi mübadiləsi, Erasmus KA2, Horizon 2020 ilə araşdırma sahəsində əməkdaşlıq, uzunmüddətli perspektivdə turizm və otelçilik menecmenti sahəsində ikili dərəcə proqramı, eləcə də, ortaq konfranslar barədə fikir mübadiləsi apardılar. Danışıqlar zamanı Xəzər Universiteti və Mərakeşin Kadi Ayyad Universitetinin nümayəndələri, Azərbaycan və ingilis dillərinin Xəzər Universitetində, eynilə, fransız və ərəb dillərinin isə Mərakeşdəki Kadi Ayyad Universitetində yay məktəblərinin təşkili məsələsini müzakirə etdilər.

On 25 November, Khazar University administration and faculties had a meeting with Mrs. Fatima Zohra Iflahen, the Vice President for International Relations of Cadi Ayyad University in Morocco, who was accompanied by Mr. Mohamed Adil Embarch, the Ambassador Extraordinary and Plenipotentiary of the Kingdom of Morocco to the Republic of Azerbaijan. The meeting was organized in cooperation with the Moroccan Embassy in Baku. Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, Assoc. Prof. Irada Khalilova, the Rector of Khazar University, Prof. Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Dr. Jeyhun Mammadov, the Dean of the School of Economics and Management, Dr. Elza Semedova, the Dean of the School of Education, Humanities and Social Sciences, Dr. Bahman Amani, the Head of English Department, Dr. Elmar Mustafayev, the Head of the Political Sciences and Philosophy Department, Raziya Isayeva, the Director of the Development Centre, Lyudmila Sotova, the Head of the Quality Assurance Centre, as well as Lamiya Panahova, the Coordinator of the International Affairs Office, who made a presentation of Khazar University before the guests, partook in the meeting.

In the framework of the meeting, the talks were held on cooperation in the fields of Maths, Physics, renewable energy, Data Science, and Child Education. Besides, the parties discussed student and staff exchange, Erasmus KA2, research cooperation on Horizon 2020, a double degree program in Tourism and Hospitality Management in the long term, as well as joint conferences. During the talks, the representatives of Khazar University and the Cadi Ayyad University of Morocco deliberated over organizing summer language schools, as Azerbaijani and English languages being organized in Khazar University, and accordingly, French and Arabic languages in partner University in Morocco.




## "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ BAŞ REDAKTORU QÜDRƏT İSMAYILZADƏ "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2019-cu il tarixli Sərəncamı ilə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə universitetin professoru, tarix elmləri doktoru, əməkdar müəllim, Xəzər Universiteti "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru İsmayılzadə Qüdrət Seyfulla oğlu "Şöhrət" ordeni ilə təltif edilib.

Qüdrət İsmayılzadəni yüksək dövlət mükafatı ilə təltif olunması münasibətilə səmimi-qəlbdən təbrik edir, pedaqoji və elmi fəaliyyətində ona yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.

## KUDRAT ISMAILZADE, EDITOR-IN-CHIEF OF "AZERBAIJAN ARCHEOLOGY" JOURNAL, AWARDED THE "ŞÖHRƏT" ORDER

By the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated November 25, 2019, to commemorate the 100th anniversary of Baku State University and its contribution to the development of education and science in Azerbaijan, Kudrat Ismailzade, Professor of the University, Doctor of Historical Sciences, Honorary Teacher, Editor-in-Chief of Khazar University's Azerbaijan Archeology Journal, has been awarded the "Şöhrət" (Honor) Order.

We sincerely congratulate Kudrat Ismailzade on the award of the highest state bestowal, and wish him further success in his pedagogical and scientific activity and strong health.

## "XƏZƏR XƏBƏR" JURNALININ REDAKSİYA HEYƏTİNİN ÜZVÜ KNYAZ ASLAN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2019-cu il tarixli Sərəncamı ilə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə universitetin Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, şair, publisist, Xəzər Universiteti "Xəzər Xəbər" jurnalının redaksiya heyətinin üzvü Knyaz Aslan "Tərəqqi" medalı ilə təltif edilib.

Knyaz Aslanı dövlət mükafatı ilə təltif olunması münasibətilə səmimi-qəlbdən təbrik edir, pedaqoji, elmi və ədəbi fəaliyyətində ona yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.

## KNYAZ ASLAN, EDITORIAL BOARD MEMBER OF "KHAZAR REVIEW" JOURNAL, AWARDED WITH "TƏRƏQQİ" MEDAL

By the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated November 25, 2019, to commemorate the 100th anniversary of Baku State University and its contribution to the development of education and science in Azerbaijan, Knyaz Aslan, Head of the University's Department of Library Studies and Publishing, Doctor of Philosophy in Pedagogy, poet, publicist, member of the Khazar University Editorial Board, was awarded with "Tərəqqi"(Development) Medal.

We congratulate Knyaz Aslan on his award and wish him further success in his pedagogical, scientific and literary activities and strong health.




# HƏYAT ELMLƏRİ DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSDA

Noyabrın 25-26-da Xəzər Universiteti Həyat elmləri departamentinin müəllimləri və imtahan nəticələri ilə fərqlənmiş bir qrup tələbəsi Bakıda təşkil olunmuş "Baytarlıq elminin inkişaf istiqamətlərində innovasiyaların tətbiqi" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda iştirak etdilər.

Konfransda Kənd Təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Azərbaycan Respublikası Prezident Aparatının rəsmisi Eldar Həsənov, Beynəlxalq Epizootik Büronun (OİE) rəsmisi Kazimeras Lukauskas, Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutunun rəhbəri Siala Rüstəmova, Rusiya Elmlər Akademiyasının fəxri üzvü Aleksandr Donçenko, Dağıstan Dövlət Aqrar Universitetinin dekanı Badruddin Hacıyev, həmçinin, Rusiya, Qazaxıstan və Ukraynadan olan alim və mütəxəssislər iştirak edirdilər.

Tədbirdə Həyat elmləri departamentinin rəhbəri Asəf Ömərov departamentin hüceyrə patologiyasını öyrənən laboratoriyasında tədqiq olunan "Xörək duzunun artan konsentrasiyalı süd məhsullarında E.coli və Salmonella spp.-nin yaşama qabiliyyətinin müxtəlif ekspozisiya müddətlərində öyrənilməsi" adlı mövzunu təqdim etdi.

# EMPLOYEES OF THE DEPARTMENT OF LIFE SCIENCES AT INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE

On November 25-26, a group of teachers and students from Khazar University's Department of Life Sciences participated in the International Conference on "Application of Innovation in the Development of Veterinary Science" organized in Baku. The Conference was attended by Inam Karimov, the Minister of Agriculture, Goshgar Tahmazli, Chairman of the Azerbaijan Food Safety Agency, Eldar Hasanov, Government official from the Presidential Administration of the Republic of Azerbaijan, Kazimeras Lukauskas, Public Officer from the International Office of Epizootics (OIE), Siala Rustamova, Head of the Azerbaijan Scientific Research Veterinary Institute, Alexander Donchenko, Honorary Member of the Russian Academy of Sciences, Badruddin Hajiyev, Dean of the Dagestan State Agrarian University as well as scientists and experts from Russia, Kazakhstan and Ukraine. Asaf Omarov, Head of the Department of Life Sciences, presented the study, being researched in the department's cell pathology laboratory, on "Study of the viability of E.coli and Salmonella spp. in increasing concentrations of salt in dairy products during different exposure periods".

# ERASMUS+ LAYİHƏLƏRİNİN İNSTİTUSİONAL MONİTORİNQİ

# ERASMUS+ PROJECTS INSTITUTIONAL MONITORING

Noyabrın 26-27-də Xəzər Universitetində Avropa Komissiyasının institusional monitorinqi keçirildi. Monitorinq Avropa Komissiyasından və Milli Erasmus Ofisindən gələn nümayəndələr tərəfindən aparıldı.

Noyabrın 26-da günün birinci yarısında monitorinq nümayəndələri Xəzər Universitetinin rəhbərliyi ilə görüşdülər, layihələr haqqında ümumi müzakirələr apardılar və bundan sonra layihələrin monitorinqinə start verildi.

Qeyd edək ki, institusional monitorinqdə indiyə qədər Xəzər Universitetinin koordinatorluğu ilə həyata keçirilmiş və ya Xəzər Universitetinin tərəfdaş olduğu Erasmus+ layihələrinə yenidən baxış oldu. Layihələri həyata keçirən məsul şəxslər bitmiş layihələrin nəticələri və təsirləri, hazırda davam edən layihələrin mövcud vəziyyəti, yeni yazılmış layihələrin isə gələcək planları haqqında məlumat verdilər. Bu layihələr çərçivəsində əldə edilmiş avadanlıqlara, yaradılmış mərkəzlərə xüsusi baxış keçirildi.

Əlavə olaraq, Avropa Komissiyasından və Milli Erasmus Ofisindən gələn nümayəndələr universitet rəhbərliyi və universitetdə fəaliyyət göstərən bəzi ofis və mərkəzlərin nümayəndələri ilə görüşlər keçirərək, gələcək əməkdaşlıq haqda müzakirələr apardılar. Maliyyə departamenti ilə görüş keçirildi, Erasmus+ layihələrinin maddi tərəfi də monitorinqdən uğurla çıxdı. Beynəlxalq Əlaqələr Ofisi ilə olan xüsusi görüşdə isə Xəzər Universitetində olan xarici tələbələrin ümumi vəziyyəti və beynəlxalq mübadilə proqramları haqda müzakirələr aparıldı.

Monitorinq 2019-cu il noyabrın 27-də davam etdi. Günün ilk yarısında qalan layihələrin təqdimatları layihə rəhbərləri tərəfindən aparıldı və qonaqlarla birlikdə müzakirələr keçirildi.

Ardınca nümayəndələr daha əvvəlcə mübadilə proqramlarında iştirak etmiş xarici və yerli tələbələrlə, eləcə də, müəllimlərlə görüşdülər, onların təcrübələri haqda məlumat topladılar və nələrin inkişafa ehtiyacı olduğuna dair müzakirələr apardılar.

Günün ikinci yarısında nümayəndələr Erasmus+ proqramı tərəfindən maliyyələşərək, formalaşmış mərkəzlərə, ofislərə və araşdırma institutlarına baxış keçirdilər və onların fəaliyyətin davamlılığını yoxladılar.

Günün sonunda Avropa Komissiyasından və Milli Erasmus Ofisindən olan qonaqlar Xəzər Universitetinin administrativ işçilərinə iki günlük qonaqpərvərliyə görə təşəkkür etdilər və eləcə də, monitorinqlə bağlı müsbət rəylər bildirdilər.

*2019-cu il noyabrın 27-də ARB televiziyasının "Günə doğru" verilişində Xəzər Universitetində keçirilən Avropa Komissiyasının institusional monitorinqi ilə bağlı süjet yayımlanmışdır. Efirə gedən süjeti bu link vasitəsilə izləmək olar:*

*https://www.youtube.com/watch?v=p99ZVp3uLyA*

On November 26-27, European Commission's institutional monitoring was held at Khazar University. Institutional monitoring was commissioned by the representatives from European Commission and National Erasmus office.

On November 26, in the first half of the day, representatives met with the University's Leadership, held the discussions on the projects and then project monitoring commenced.

It is worth mentioning that during the monitoring time there was a general overview to the all projects which were coordinated by the Khazar University and the projects which Khazar University attended as a partner university. Project managers provided information about the outcomes and the impacts of the finished projects, as well as the expected outcomes and impacts about the on-going projects. The centres and the equipments which were formed and bought by the help of the projects were monitored as well.

Additionally, representatives from European Commission and National Erasmus Office had a meeting with the University Leadership and with representatives of some of the university offices and centers to discuss future cooperation. The meeting with Financial Department took place and the financial processes of the Erasmus + projects were successfully monitored. During the special meeting with the International office, representatives discussed the general situation of international students at Khazar University and the exchange programs.

Institutional Monitoring continued on 27th of November. In the first half of the day, last projects were presented by project managers and discussed with the guests.

Then the visitors met with both international and national students as well as the teachers who have previously attended the exchange programs and heard about their experiences and discussed the things that need further improvement.

In the second half of the day, representatives have visited the centres, offices, research institutes which were co-founded by Erasmus + projects and gained information about their sustainability.

At the end of the day, visitors from European Commission and National Erasmus office expressed their gratitude to the administrative staff of Khazar University for their two-day hospitality and provided their positive feedbacks on the monitoring.

*On November 27, 2019, the ARB television program "Günə doğru" spread the story line on the European Commission institutional monitoring at Khazar University. You can watch the broadcast through the following link:*

*https://www.youtube.com/watch?v=p99ZVp3uLyA*













# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ ALMATI UNİVERSİTETLƏRİNDƏ

# KHAZAR UNIVERSITY REPRESENTATIVES VISITED ALMATY UNIVERSITIES

"Dayanıqlı inkişaf naminə təbii ehtiyatların idarə edilməsi" magistr proqramının hazırlıq mərhələsi çərçivəsində Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov və Xəzər Universitetinin professoru Fuat Rasulov noyabrın 24-27-də Qazaxstanın Almatı şəhərinə səfər etdilər. Xəzər Universitetinin nümayəndələri KIMEP Universiteti, Qazax-Britaniya Texniki Universiteti (KBTU), Narxoz Universiteti və Satbayev Universitetinin rəhbərləri ilə görüşdülər. Həmin universitetlərin hər biri Xəzər Universiteti ilə əməkdaşlıqda maraqlı və lazım olan addımları atmağa hazır olduqlarını bildirdilər.

On November 24-27, within the framework of the feasibility study project for the planned master's degree program in "Natural Resources Management for Sustainable Development" at Khazar University, Mr. Ingilab Ahmadov, the Director of the Eurasia Knowledge Hub, and Prof. Fuat Rasulov visited Almaty, Kazakhstan. Khazar University representatives made visits to KIMEP University, Kazakh-British Technical University (KBTU), Narkhoz University and Satbayev University and met with the leadership of these universities. All of the above-mentioned universities expressed their interest in cooperating with Khazar University and readiness to take appropriate actions to start a successful cooperation.




## MƏCBURİ KÖÇKÜN MƏKTƏBLƏRİ ÜÇÜN İNGİLİS DİLİNİN TƏDRİSİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİM KURSU DAVAM EDİR

## TRAINING COURSE WITHIN THE FRAMEWORK OF "ENGLISH FOR IDP SCHOOLS" PROJECT IS BEING CONTINUED

Sentyabrında ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyinin dəstəyilə başlanılmış və Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamenitinin müəllimlərinin cəlb olunduğu uzun müddət üçün nəzərdə tutulmuş "Məcburi köçkün məktəbləri üçün ingilis dilinin tədrisi layihəsi" (*Capacity Building Program in English Language Teaching Project for IDP schools*) öz işini davam etdirir.

Launched in September with the support of the US Embassy in the Republic of Azerbaijan and involving teachers from Khazar University Department of English Language and Literature, the "Capacity Building Program, which is envisaged for long-term duration, in English Language Teaching Project for IDP Schools" (internally displaced persons -IDP) continues its work.

## "XƏZƏR"İN MÜƏLLİMİNİN İCTİMAİ MÜHAZİRƏSİ

## PUBLIC LECTURE BY KHAZAR UNIVERSITY TEACHER

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi fəlsəfə doktoru Anar Cəfərovun "Əkinçi" Sosial Təşəbbüsünün təşkilatçılığı ilə ictimai mühizirəsi yayılıb. Mühazirə çağdaş dövrün bir çox mühüm fəlsəfi cərəyan və məktəblərini özündə ehtiva edən, dünyanın bir çox qabaqcıl universitetlərinin filosofları arasında geniş yayılmış fəlsəfi bir istiqamət olan analitik fəlsəfənin mühüm xüsusiyyətlərinə həsr edilmişdi.

Mühazirənin videoyazısını bu link vasitəsilə izləmək olar:

*https://www.youtube.com/watch?v=CkkAYPcOx0c&feature=emb_logo*

Dr. Anar Jafarov, a full-time lecturer at the Khazar University Department of Political Sciences and Philosophy, delivered a public lecture on "What is Analytic Philosophy?", being organized by "Akinchi" Social Initiative. The lecture was devoted to the important features of analytical philosophy, which includes many important philosophical trends and schools of the modern era, and which is a philosophical course that is widespread among the philosophers of many leading universities of the world.

The lecture video can be viewed at this link:

*https://www.youtube.com/watch?v=CkkAYPcOx0c&feature=emb_logo*



# TƏLƏBƏLƏRİNƏ HÜQUQLARINI MÜDAFİƏ ETMƏYİ ÖYRƏDƏN UCA İNSAN

**Aynur Qəzənfərqızı,**
*filologiya üzrə fəlsəfə doktoru*

*2019-cu il noyabrın 12-də sherg.az xəbər portalında Xəzər Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Aynur Qəzənfərqızının Vurğun Əyyub haqqında məqaləsi dərc olunub. Məqaləni oxucularımıza təqdim edirik.*

Onun adını ilk dəfə AMEA Folklor İnstutunda Xarici ölkələrlə əlaqələr bölməsinin rəhbəri Əli Şamildən eşitmişəm. Əli müəllim Türkiyədən bir kitab gətirmişdi. Kitabı mənə verib "apar bunu Vurğun müəllimə çatdır" - dedi. Əli müəllimi yaxından tanıyırdım. Davranışlarını, səs tonunu təhlil edə bilirdim. "Vurğun" sözünü o qədər qürur hissi ilə, atanın övladını əzizlədiyi mehribanlıqla ifadə etdi ki, "kimdir Vurğun müəllim?" - deyə soruşmuşdum. "Sənin kimi alimi Araz aşağı axıdım, Araz yuxarı axtarım" - dedi Əli müəllim. Əli müəllim bu ifadəni işlətmişdisə, deməli, mən ciddi anlamda böyük bir səhv buraxmışdım, odur ki, dərhal Google`da Vurğun Əyyub adını axtarışa verdim. Haqqında çox dəyərli məlumatlar var idi... Ancaq TQDK-nın ilk sədri olması, test üsulunu Azərbaycana ilk dəfə gətirməsi haqqında məlumatı oxuyub, özümdən utandım.

Vurğun müəllimin başçılıq etdiyi təşkilat mən və mənim kimi milyonlarla kasıb gəncin universitetlərdə oxumasına səbəb olmuş, gənc nəslin savadlanmasında böyük rol oynamışdır. Bir sözlə, o bizim hamımızın atası idi. Google`dan aldığım məlumatlardan sonra kitabı götürüb, Neftçilər metrosunda görüşməyə getdim. Nə yalan deyim, çox həyəcanlı idim. Təxminən 2-nin yarısında görüş təyin etmişdik. Tam 13:30-da mən qatardan düşərkən o da pilləkanları enirdi. Dəqiqliyinə heyran qalmışdım. Kitabı verərkən özümü saxlaya bilmədim, əlindən möhkəm tutub "sizə təşəkkür edirəm, axı sizin sayənizdə mən də bu gün ədalətli şəkildə qəbul olunduğum, oxuduğum universitetlərdən məzun olmuşam". Vurğun müəllimin çöhrəsinə xəfif bir utancaqlıq qondu. Dodaqları xəfif gülümsədi, sanki məni indicə görürdü, bayaqdan kitabı alarkən sorğu-suala tutduğu qız deyildim. "Sən ki bunu anlayır, qiymətləndirirsən, mən sənə çox təşəkkür edirəm" - dedi. Açığı, mən özüm də çox həyəcanlı idim. Səbəbini bilmirəm, amma bu insanın qarşısında özümü sanki imtahan verirmiş kimi hiss edirdim. Ona qarşı heyranlıq duyğumu ifadə etməklə də guya ki, böyük bir qəhrəmanlıq etmiş kimi qəribə duyğular içərisində işə qayıtdım...

Onunla ikinci görüşümüz Xəzər Universitetinin

keçirdiyi "21-ci əsrin pəncərəsindən Mədəniyyət və Kimlik Beynəlxalq Simpoziumun"da oldu. Simpoziuma qonaq kimi getmişdim. Məruzə oxumasam da, verdiyim suallar diqqətini çəkmişdi. Yaxınlaşdı və "deyəsən, Əli müəllim öz kadrlarını çox yorur" - dedi. Mən gülümsəyərək, "Müəllimin işi tələbəsini yormaq, tələbənin vəzifəsi də müəlliminin onu yormasını boşa çıxarmamaqdır" - dedim. Üzümə uzun və diqqətli baxdı, başını buladı və getdi. O gecə müəllimə Facebook`dan istək yolladım. On beş dəqiqə içində istəyim qəbul edildi. Vurğun müəllim ilə çox maraqlı "çatlaşma"larımız başladı. Bəzilərini dəyərli oxucularımızla paylaşmaq istəyirəm.

Söhbətimiz mənim müdafiəmin nə vaxt olacağını soruşması ilə başladı. Mən də dissertasiyamı yazmağıma və elmi rəhbərimə il yarımdır təhvil verməyimə baxmayaraq, bir xəbər olmamasından şikayətlənmişəm. Ürəyim o qədər dolu imiş ki, Vurğun müəllimə yükləməyə çalışmışam. Necə də anlayışsızlıq etmişəm...

Növbəti söhbətimiz isə mənim TV`dəki çıxışıma olan münasibəti ilə başlayır. Folklor İnstitutuna yeni işə başladığım vaxt qəribə bir şəkildə telekanallardan mənə Novruz bayramı, milli döyüş sənəti, aşpazlıq sənəti, milli geyim mövzularında müsahibə verməyim üçün təkliflər gəlmiş və bu təklifləri məmnuniyyətlə qəbul etmişdim. İşə başladığım heç altı ay belə olmadığı halda bu təkliflərin mənə gəlməsi və mənim qəbul edib çıxış etməyim bir çox folklorşünas, ədəbiyyatçı alimləri qəzəbləndirib, mənə nifrət etmələrinə səbəb olsa da, Vurğun müəllim təbrik edir, çox sevindiyini deyir, bəzi nöqsanlarım ilə bağlı məsləhətlər verirdi... Bir sözlə, yenə böyüklüyünü göstərirdi... Mən ona "tənqidləriniz yerində və haqlıdır" yazanda isə qarşılığında "möhkəm ol, tənqidə də özünü çox alışdırma!" deyirdi. İlahi, nə gözəl məsləhət verirdi! Necə dəyərli sözdür! Bu məsləhət mənim bütün müəllimlik fəaliyyətim boyunca qulağımda sırğa etdiyim bir şüara çevrilmişdir. Necə şanslıyam bu məsləhəti belə dəyərli bir ziyalıdan almağıma...

Bir dəfə qırğız papaqları haqqında bir məlumat paylaşmışdı. Paylaşımın altında rəy yazanda Vurğun müəllimin adını Əyyub şəklində yazmışam. İnbox`da məni məhkəməyə verəcəyini deyib, "mən bir türk olaraq ərəb adı daşımıram! Əyyub mənim soyadımdır" xəbərdarlığını etmişdi. Yəni, yenə böyüklüyünü göstərmişdi. Onun yerində başqa birisi olsa, elə rəyin altındaca məni tənqid edər, hər kəsin içində üzr istətdirərdi. Vurğun Əyyub böyüklüyü bir az da belə incəliklərdə gizlənirdi...

Yenə qızqaçırma ilə bağlı bir müsahibəm mətbuatda bir qədər geniş yayılmışdı. Başlıq ilə yazının mətni eyni deyildi. Bəzi böyüklərimiz sadəcə başlığı oxuyaraq məni qınasalar da, Vurğun müəllim yenə böyüklüyünü göstərərək, məqaləni axıracan oxuduğunu, gözəl müsahibə alındığını yazıb, məni təbrik etdi.

Məmməd Arazın bir şeirini təhlil etmişdi və bu, mətbuatda yayımlanmışdı. Vurğun müəllim məqaləni oxumağımı tapşırdı. Tapdım oxudum. Elə həmin axşam məqalə haqqında fikrimi soruşdu. Utanmışdım yaman. "Mən kiməm ki, sizin yazınıza rəy bildirim" - demişdim. Mənə yazdığı cavab yenə mənə dolu idi: "Bir də belə yazsan, gözümdən düşərsən. Necə yəni kiməm? Aynur Qəzənfər qızısan, ayrım-yerazsan, ədəbiyyatçısan, ən nəhayətində fikrini bildirməyə haqqı olan insansan".. Dialoqumuzu olduğu kimi əlavə edirəm məqaləyə:

**Mən:**

Yazırsınız ki, lirikada şeirin lirik qəhrəmanı ilə şair şəxsiyyəti həmişə olmasa da, çox zaman eyniyyət təşkil edir. Yazdığı şeirdən şairin obrazı boylanır, oxucu həmin şeirin misralarından şair-qəhrəmanını öyrənib tanıyır. Ən birinci, bu fikrinizlə razilasmayacağam.

**Vurğun müəllim:**

Bu, ədəbiyyatşünaslıqda sübut olunmuş məsələdir! Sonra?

**Mən:**

Vurğun muəllim, ədəbiyyatşünaslıqda isbat olunmuş bir çox məsələlər hələ hökm deyil məncə... Elə ədəbiyyatın da dəqiq elmlərdən fərqi bu deyilmi?

**Vurğun müəllim:**

Ədəbiyyatşünaslıqda ən üsyankar adamlardan biriyəm, amma bu yerdə sənin şübhənin əsası yoxdur. Mən deyənə inan, yoxsa səhv yola gedərsən. Lirik şeirdə adam özünü gizlədə bilmir. Hə, sən lirik qəhrəman məsələsi ilə şair şəxsiyyətini qarışdırırsan, dostum!

**Mən:**

Mən ilk dəfədir sizin yazınızı oxudum. Belinski deyirdi ki, tənqidçinin işi yazarınkından daha çətindir, çünki tənqidçi yazarin əsərində heç onun özünün də bilmədiklərini bilməlidir. Məncə, bu şeirin təhlilində də siz, bax, o Belinskinin tənqidçisi kimisiniz. Bəlkə də heç Məmməd Arazın belə görmədiklərini görüb təhlil etmisiniz. O qədər çox şey kəşf eləmisiniz ki, bunlar da bu şeirdə imiş" dedim öz-özümə.

**Vurğun müəllim:**

Sən heç görmüşdün ki, 16 misralıq bir şeir haqqında 14 min işarəlik yazı olsun?

**Mən:**

Ürək dolu olanda və gorunməzləri gormək qabiliyyəti olanda belə olurmuş demək. Bu arada bu seiri ikinci dəfə oxutdunuz mənə, əvvəl də oxumuşdum...

...Bəli, mən hədsizcə Vurğun müəllimi tənqid edirdim, o, qosqoca Vurğun müəllim isə mənim tənqidimi saya salmaqla qalmır, ona "özünümüdafiə" şəklində cavab da yazırdı. Halbuki mən Folklor İnstitutunda folklorşünaslığa yenicə addım atmış doktorant idim. Mənə cəsarət yükləyib onu tənqid etməyimi tələb edir, daha sonra səbr və təmkinlə cavab yazırdı. Mətbuatdan, Facebook profilindən çılğın, doğru bildiyindən geri durmayan, prinsipial, sözü üzə deməkdən çəkinməyən biri kimi tanıdığım Vurğun müəllim

eyni zamanda səbrli, ağıllı, stratejik pedaqoq kimi məndə özüməinam, güvən yaratmağa çalışırdı. Halbuki həmin ərəfədə "məni bir qaşıq suda boğa biləcəyini", "getsin evində bozbaş bişirsin, amma alim olmasın" deyən bəzi alim iş yoldaşlarım qol-qanadımı qırmağa çalışır, məni çıxdığım yoldan vaz keçməyə cəhd edirdilər. Vurğun müəllim də sanki bunları eşidib bilirmişcəsinə məqaləmi oxuyub bəyəndiyini, fikirlərimin çox dəyərli olduğunu yazaraq məni ürəkləndirir, işimə dördəlli yapışmağıma səbəb olurdu. Özünün də dediyi kimi, o, pedaqogikanı öyrənib müəllim olmamışdı, onun saçının hər telindən ayaq dırnağınacan müəllimlik axırdı. Vurğun müəllim sadəcə auditoriyada tələbələrinə müəllimlik etmirdi. Sadəcə oxuduğu mühazirələrlə yox, davranışları, məsləhətləri, tövsiyələri, danlaması ilə də bu missiyanı yerinə yetirirdi.

Vurğun müəllimi digərlərindən fərqləndirən cəhətlərdən biri də insanları doğru yolda olmağa, dürüstlüyə səsləməsi idi. Əgər bir insan haqqına danışıbsa, mütləq bunu yüksək qiymətləndirərdi. Bir dəfə Kayseridə təşkil edilən bir simpoziuma qatılarkən, avtobusla uzun yolculuğumuz vardı. Sıxılmayaq deyə Aqil Abbasın "Dolu" filmini izləyirdik. Bu zaman millət vəkillərimizdən birisi Elçibəy hakimiyyətini pisləməyə çalışdığı vaxt bilərək ya da bilməyərək təhrifə yol verdi. Dözməyib kəskin etiraz etdim. Həmin vaxt bu söhbət Vurğun müəllimə qədər gəlib çatmışdı. Bu mövzuda mənə yazdığı cümlə eynən belədir: "Bax, dinlə! İnsan dəyər sahibi olmalıdır. Məncə, ləyaqət çox böyük dəyərdir. Ləyaqəti olmayanlardan hər şey gözləmək olar. Dili acını da, qorxağı da, hansı məqamdasa satqınlıq edəni də (yəni yoldaşlıq münasibətində) bağışlamaq olar. Ləyaqətini itirmiş adamları yox. Çünki onlar təhlükəlidir. Vətəninə, millətinə satqınlıq ağır günahdır, cinayətdir. Mən şəxsi münasibətlərdə əlacsız qalıb onu yapanları bağışlaya bilərəm. Amma vətənə dil uzadanları heç vaxt bağışlamaram. Sən də bağışlama, düz eləmisən".

İki-üç cümlədə vətən sevgisinin nə olduğunu, vətənin necə sevilməli olduğunu aşıladı.

Bir gün bir mübahisə əsasında sufiliyi dərk edə bilmədiyimi anlamışdım. Söhbəti sufilikdən saldıq. İki üç lətifə danışdı və mənim sufilik barədə beynimdə həll edə bilmədiklərim aydın oldu: "Bir gün Bəktaşi dərvişi məsciddə şərab içirmiş. Yoldan keçən deyir ki, tfu sənə. Dərviş qayıdır ki, əlimdə vacib işim olmasaydı, sənə göstərərdim, Allahın evinə tüpürmək necə olur.

Bir Bəktaşi dərvişi kirin-pasağın içində gəzirmiş. Soruşurlar ki, sarığını niyə yumursan? Deyir ki, eeee, yenə kirlənməyəcək? Deyirlər ki, yenə yuyarsan. Deyir ki, eeee, yenə kirlənməyəcək? Deyirlər ki, yenə yuyarsan. Qayıdır ki, yahu, mən bu dünyaya sarıq yumaq üçünmü gəldim?". Lətifələri danışdı, ancaq mən anlamadığımı ifadə etdikdə "Hər nə ki var aləmdə, Örnəyi var adəmdə" cümləsini də söyləyib, "sufi dərvişləri belə ziddiyyətli xarakterə malik olublar!" yazdığında, "bəs bu ziddiyyət başqalarını narahat etdikdə niyə vaz keçməyiblər?" sualını verib cavabında "sufi dünyanı vecinə alıb ki? Sufidən soruşublar ki, Allahtəala niyə bu dünyanı dərəli-təpəli, bataqlı-bulaqlı yaradıb? Qayıdıb ki, 6 günə yaradılan elə belə olar da!"

Mən dözməyib "oxuduğum sufilik ilə sizin izah etməyə çalışdığınız sufilik fərqlidir axı" dediyimdə isə,"sufi cərəyanları, təriqətləri çoxdur. Bəzi sufilər, məsələn, təmizliyə böyük önəm veriblər ki, Allah sevgisinin yurd saldığı bədən təmiz olmalıdır. Bəzi sufilər, hətta, adi yarpağa belə sonsuz sevgi ilə yanaşıblar ki, Allahın təcəllasıdır." Vurğun müəllim fikrini yazaraq, məni ən sadə dildə sufizm ziddiyyət və fəlsəfəsini dərk etməyə vadar etdi. Məhz bu söhbətdən sonra mən sufizm haqqında oxuduqlarımı, qismən də olsa, anladım.

Vurğun müəllimin qeyri-adiliyini anamla olan münasibətində də gördüm. Anam Vurğun müəllimin millət vəkilliyinə namizədliyini verdiyi seçki məntəqəsində sədr idi. Seçki zamanı savaşmışdılar. Mənim xəngəlimin mədhini də hardansa eşidib bir gün mənə "xəngəl bişir, gələk yeyək, ayrım balası" dedi. Məmnuniyyətlə qəbul etdim. Anam gələcək qonağın Vurğun Əyyub olduğunu eşidəndə dəvət etmək istəmədi. Vurğun müəllim də təkidlə xəngəl qonaqlığımı istədiyini dedikdə, utana-utana vəziyyəti dedim. Anamın kim olduğunu öyrəndikdən sonra artıq mənimlə də əlaqəni kəsəcəyini, bizə də gəlmək istəməyəcəyini düşündüm. Amma verdiyi cavab möhtəşəm idi: "Ayrım balası, sən xəngəlini bişir, məni çağır. Anan məni qapıdan qovası deyil ki" dedi. Şaşırıb qalmışdım. "Niyə" sualımın cavabında "Anan sevməsin qoy heç. İstədiyi qədər məntəqə sədri olsun. Mən ondan acığımı almışam, qızı məni çox istəyir, gələcəkdə özü kimi tələbələr yetişdirəcək. Onun yox, mənim istədiyim olacaq. Sən xəngəlini bişir, məni görsün lap "sevinsin", mən də xoşhal olum". Qeyd edim ki, xəngəl qonaqlığı zamanı nəinki sadəcə atam, hətta anam da Vurğun müəllimə heyran olmuşdular.

Vurğun müəllim ilə söhbətlərimiz əsasən şirin deyişmələr, sataşmalar şəklində keçərdi. O mənə ayrımlığım ilə sataşar, mən də ona "qocalığı" ilə cavab qaytarardım. Çox tez-tez də şeir sətirləri ilə məni "bağlayar"dı. Məni rəhbərlik etdiyi departamentə işə götürənə qədər bu cür xoş söhbətlərimiz davam edərdi. Departament rəhbərim olduqdan sonra isə artıq müdirim kimi ciddiyyətini qoruyur, amma hələ də şəfqətini üstümdən əskik etmirdi. Dörd il dostluğu ilə müəllimlik etdi, daha sonra bir il yarım yanında müdür - müəllimlik "kursu" aldım. Qorxusuz, prinsipial, çılğın, tələbəsini çox sevən, onlara haqlarını, hüquqlarını xatırladıb özlərini əzdirməməyi öyrədən uca insan! Hələ öyrənməli çox şey vardı Sizdən... Kaşkələr sıralanır boğazımda. Sizi hər xatırladıqca ürəyimin lap dərinliyində bir ağrı, bir yara boylanır. Həyatınızı verdiyiniz ölkənizdə sevgi, saygı ilə anıldığınız müddətcə var olacaqsınız!

Çin, Hebei vilayəti, Şijiazhuang şəhəri,
Hebei Xarici Araşdırma Universiteti
30.10.2019
***https://sherg.az/x%C9%99b%C9%99r/109676***



# UNİVERSİTET TƏLƏBƏLƏRİ TƏBİƏT TARİXİ MUZEYİNDƏ

# UNIVERSITY STUDENTS AT THE MUSEUM OF NATURAL HISTORY

Noyabrın 27-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə tarix müəllimliyi ixtisasının I və II kurs tələbələri üçün H.Zərdabi adına Təbiət Tarixi Muzeyində əyani dərs təşkil edildi. Muzey qədim tarixin izlərini öyrənməkdə tələbələr üçün çox maraqlı oldu, əyani-praktik təcrübə rolunu oynaydı.

Muzeyin direktoru Taryel Heybətovun tələbələrlə səmimi söhbəti və antropologiya haqqında olan fikirləri tələbələrin xüsusən diqqətini çəkdi. Əyani dərsdə tələbələrlə sual-cavab şəklində müzakirələr də aparıldı.

On November 27, a practical lesson for the first and second-year students, majoring in History (Teaching), was held at the Natural Historical Museum named after G.Zardabi, led by Orkhan Zamanov, an instructor at the Department of History and Archeology of Khazar University. The Museum was very interesting for students in studying the traces of ancient history and played a role in practical experience.

Museum Director Taryel Heybatov's forthright conversation with students and his views on anthropology were of particular interest to the students. During the practical lesson, the discussion took place in the form of a question-and-answer.






# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI ƏƏSMN-NİN KONFRANSINDA

# PSYCHOLOGY DEPARTMENT STAFF AT CONFERENCE OF THE MINISTRY OF LABOR AND SOCIAL PROTECTION OF THE POPULATION

Noyabr 28-də Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və departamentin müəllimi Nilufər Əlizadə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) və BP-"British Council"-in birgə həyata keçirdikləri "Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması proqramı" çərçivəsində nazirliyin, işəgötürənlərin, o cümlədən, biznes strukturlarının, digər maraqlı tərəflərin nümayəndələrinin, əlilliyi olan şəxslərin iştirakı ilə "Əlilliyi olan şəxslər iş dünyasında" adlı konfransda iştirak etdilər.

Konfransda əlilliyi olan şəxslərin uğur hekayələri dinlənilərək, onlarla Xəzər Universitetində həyata keçiriləcək növbəti layihələrin müzakirəsi də aparıldı.

On November 28, Melek Karimova, Coordinator of Khazar University's Psychology Department, and Nilufar Alizade, instructor at the Department, participated in the Conference entitled "Persons with Disabilities in the Business World" within the framework of the "Enhancing employability skills for people with disabilities" jointly implemented by the Ministry of Labor and Social Protection of the Population, and by BP-"British Council's" Program, with the participation of the Ministry, employers, as well as representatives of business structures, other interested parties, people with disabilities. The Conference listened to success stories of people with disabilities and discussed future projects to be organized at Khazar University.



# KİM-İN NÜMAYƏNDƏLƏRİ UNİVERSİTETLƏRARASI 1-Cİ KİTABXANA FORUMUNDA

# REPRESENTATIVES OF LIC PARTICIPATED IN THE 1 ST INTER - UNIVERSITY LIBRARY FORUM

Noyabrın 28-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC), respublikada ilk dəfə olaraq, Universitetlərarası 1-ci Kitabxana Forumu keçirildi. Tədbirdə Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin nümayəndələri, ali məktəb rektorları, millət vəkilləri, aparıcı kitabxanaların rəhbərləri və digər qonaqlar iştirak etdilər. Konfransda Azərbaycanda kitabxana işinin inkişafı ilə bağlı faydalı fikirlər və müzakirələr oldu.

Konfransdan sonra UNEC-in 1 saylı Oxu zalının açılışı oldu. Qonaqlara UNEC-in 24/7 kitabxanası ilə tanışlıq imkanı verildi. Forumun davamında ali təhsil müəssisələrinin kitabxanalarının XXI əsrdə qarşılaşdıqları əsas problemlər, perspektivlər və hədəflər ətrafında diskussiyalar aparıldı. Forumda Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli də iştirak edirdilər.

On November 28, the 1st Inter-University Library Forum was held at the Azerbaijan State Economic University (UNEC) for the first time in the country. The event was attended by representatives of the Ministry of Education and the Ministry of Culture, rectors of higher education institutions, members of parliament, heads of leading libraries and other guests. During the Conference, the discussions and exchange of the useful ideas took place concerning the development of library field in Azerbaijan.

After the Conference, UNEC Reading Hall No.1 was opened. Guests had an opportunity to get acquainted with the UNEC 24/7 library. During the Forum discussions were held on the main problems, perspectives and goals faced by university libraries in the 21st century. Khazar University Library and Information Center Director Tatyana Zaytseva and Deputy Director Aytac Misgarli also attended the Forum.





## "BEYNƏLXALQ HÜQUQDA GÜC TƏTBİQİ" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "THE USE OF FORCE IN INTERNATIONAL LAW"

Noyabrın 28-də Dr.Nəcibə Mustafayeva Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin tələbələri ilə interaktiv seminar keçirdi. "Beynəlxalq hüquqda güc tətbiqi" mövzusunda keçən seminarda müasir beynəlxalq münasibətlərdə güc tətbiq edilməsinin qanuniliyi müzakirə olundu və tələbələrə praktiki tapşırıq verildi.

Seminar sual-cavab sessiyası ilə davam etdi və sonda Dr.Nəcibə Mustafayeva tələbələrə fəal iştirak etdiklərinə görə təşəkkür etdi.

On November 28, Dr. Najiba Mustafayeva held an interactive seminar with students of the Political Science and Philosophy Department. The seminar on "The use of force in international law" was focused on the legitimacy of the use of force in modern international relations and then students were provided with case-studies.

Dr. Mustafayeva concluded her seminar by welcoming questions from the audience after which she thanked the students for their active participation.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİ "İCTİMAİ KİMLİK ZƏİFLƏMƏSİ" HAQDA İCTİMAİ MÜHAZİRƏ OXUDU

## POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT'SINSTRUCTOR DELIVERED LECTURE ON "PUBLIC IDENTITY DISEMPOWERMENT"

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Tural Hüseynli noyabrın 16-da Milliyyət Araşdırmalar Mərkəzinin təşkil etdiyi tədbirdə "İctimai kimlik zəifləməsi" haqda ictimai mühazirə oxudu.

İlkin olaraq, Tural Hüseynli sosial ədalət və kimlik siyasəti kimi bəzi terminoloji məsələlərə aydınlıq gətirdi. Ardınca mühazirəçi ictimai kimlik zəifləməsi ilə siyasi əlverişsizlik arasındakı əlaqəni izah etdi və bu problemi həll etmək üçün ictimai həyatda önə çıxan bütün iqtisadi, sosial, hüquqi və siyasi əngəllərin aradan qaldırılmasının vacibliyindən danışdı. Mühazirədən sonra iştirakçıların mövzu ilə bağlı suallarına cavab verildi.

Bu linklər vasitəsilə mühazirəni izləmək və ya mövzu ilə bağlı Tural Hüseynlinin əvvəlcə yazdığı məqaləni oxumaq olar:

*https://www.youtube.com/watch?v=Pckb3xEvneQ*

*https://milliyyet.info/2019/04/22/siyasi-ve-ictimai-kimlik-zeiflemesi/*

Tural Huseynli, Political Science and Philosophy Department's instructor, delivered a public lecture on the topic of "Public Identity Disempowerment" with the invitation of "Milliyyet Research Center".

Firstly, Tural Huseynli delivered some terminological explanations on the issues of social justice and identity politics. Then he has talked about the relationship between public identity disempowerment and political disadvantageousness and tried to emphasize the importance of eliminating the economic, social, legal and political barriers from different identities' public life. After the lecture Q&A session was held.

You can either watch the lecture video or you can read the related article from the links:

*https://www.youtube.com/watch?v=Pckb3xEvneQ*

*https://milliyyet.info/2019/04/22/siyasi-ve-ictimai-kimlik-zeiflemesi/*



## "SÜLHÜN POST-MODERN TƏFSİRLƏRİ" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "POST-MODERN INTERPRETATIONS OF PEACE"

Noyabrın 28-də sülh və münaqişə mövzuları üzrə tədqiqatçı Aynurə Babayeva Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin tələbələri ilə seminar keçirdi. "Sülhün post-modern təfsirləri" mövzusunda keçən seminarda sülhün və müharibənin birgə mövcudluğu, sülhün hazırda necə görünməsi müzakirə edildi.

Sual-cavab şəklində davam edən seminarda tələbələr daha çox sülhün necə qorunub saxlanması ilə maraqlandılar. Sonda Aynurə Babayeva tələbələrlə maraqlı və interaktiv seminar keçirmək imkanı yaratdığı üçün Siyasi elmlər və fəlsəfə departamentinə təşəkkürünü bildirdi.

On November 28, Aynura Babayeva, Researcher on Peace and Conflict fields, held an interactive seminar for the students of the Political Science and Philosophy Department. The seminar on "Post-modern interpretations of peace" was focused on the coexistence of peace and war, how the peace is currently seen.

During the seminar which followed by Q&A session, students were interested in how peace is preserved. Then, Aynura Babayeva expressed her gratitude to Department of Political Science and Philosophy for the opportunity to conduct an interesting and interactive seminar with students.







# NDU-NUN TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATI MUXTAR RESPUBLİKANIN ƏN YAXŞI TGT ADINI QAZANIB

10-17 noyabr – Beynəlxalq Tələbə Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən yarışların qalibləri mükafatlandırılıb.

"Muxtar respublikanın ən yaxşı Tələbə Gənclər Təşkilatı (TGT)" müsabiqəsi "Təbiətsevər", "Naxçıvanda gənc olmaq" mövzusunda məqalə, "On/off" video və qısametrajlı film yarışmalarından ibarət olub. "Təbiətsevər" yarışmasının keçirilməsində əsas məqsədlərdən biri ətraf mühitə qayğını artırmaq, gənclərdə təbiətə sevgini təbliğ etməkdir. "Naxçıvanda gənc olmaq" mövzusunda keçirilən məqalə yarışmasında isə hər Tələbə Gənclər Təşkilatı tərəfindən 250-300 söz həcmində məqalə təqdimi olub. Qısametrajlı film yarışmasında məqsəd gənclərin vətənpərvərlik tərbiyəsinin nümayişi, onların yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması olub. "On/off" video yarışmasının əsas məqsədi isə sosial şəbəkələrin, eyni zamanda bütövlükdə internet resurslarının müsbət tərəflərindən yararlanaraq Naxçıvanın turizm imkanlarının, tarixi abidələrinin gənclər vasitəsilə tanıdılmasının təmin edilməsi, onların yaradıcılıq qabiliyyətini səfərbər etməkdir.

"Vətənpərvər" qısametrajlı film yarışmasında qalib adına NDU-nun komandası layiq görülüb. "On/off" video yarışmasının qalibləri də NDU-nun tələbələri olublar. Bu nominasiya üzrə Anar Rəsulzadə və Kənan Hacızadə I və II yerləri bölüşüblər. Əcnəbi tələbələr arasında keçirilən "Azərbaycanı tanı" intellektual oyunun hər üç yerin qalibləri NDU-nun tələbələri Nevruz Gökhan, Yelda Gül Erginsoy və Berkay Yaşar olub.

"Naxçıvanda gənc olmaq" mövzusunda məqalə yarışmasında Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə I kurs tələbəsi İlahə Allahverdiyeva II olub. Naxçıvan Dövlət Universitetinin "Karvan" komandaları Şən və Hazırcavablar Klubları arasında keçirilən müsabiqədə mükafata layiq görülüblər.

"Muxtar respublikanın ən yaxşı Tələbə Gənclər Təşkilatı" müsabiqəsinin qalibi NDU olub, "Muxtar respublikanın fəal Tələbə Gənclər Təşkilatı" adını isə Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Texniki Kollecinin tələbə gənclər təşkilatları qazanıblar.

